Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 184 (8207) ŞƏNBƏ, 24 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Mütərəqqi nümunə

## Prezident İlham Əliyevin böyük iqtisadi islahatlarının beynəlxalq reytinq təşkilatları tərəfindən dəyərləndirilməsi uğur göstəricisidir

Bu gün dünya ölkələrində müşahidə edilən iqtisadi problemlər yaşanmasına, regional səviyyədə gedən mürəkkəb siyasi və iqtisadi proseslərin mənfi təsirlərinə baxmayaraq, Azərbaycanda təmin olunan dayanıqlı inkişaf aparılan islahatların uğurlu nəticələr verdiyini bir daha təsdiqləyir. Elə bunun səbəbidir ki, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan "Doing Business 2019" hesabatında Azərbaycan ən islahatçı ölkə kimi göstərilib.

Ölkə iqtisadiyyatının inkişafı üçün həyata keçirilən praqmatik islahatlar bütövlükdə ardıcıl uğurlar qazanmağa təkan verir. Eyni zamanda görülən qabaqlayıcı tədbirlər, xarici risklərin Azərbaycan iqtisadiyyatına mənfi təsirini neytrallaşdırır, ölkənin dayanıqlı inkişafını təmin edir.

Prezident İlham Əliyevin iqtisadi islahatlar paketi çərçivəsində sahibkarlığın inkişafı ilə bağlı verdiyi qərarlar strateji xarakter daşımaqla yanaşı, son bir neçə ildə ölkədə özəl sektorun inkişafında yeni dövrün başlanğıcına zəmin yaradıb. Biznes mühitinin əlverişliliyinin daha da artırılması üçün vergi və gömrük islahatları davam etdirilir, onlayn vahid ixrac ərizəsi, "yaşıl dəhliz", biznesə başlama, kreditlərə əlçatanlıq sahələrində mühüm islahatlar aparılır. Həm sahibkarlığın inkişafı, həm də biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən sistemli tədbirlərin beynəlxalq iqtisadi təşkilatların hazırladıqları hesabatlarda da öz əksini tapması uğur göstəricisidir.

Məsələn, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb. Hesabatda ölkəmiz 10 göstəricidən 8-i üzrə irəliləyib. "Biznesə başlama" göstəricisi üzrə 9 pillə irəliləyərək 9-cu pilləyə, "Kiçik investorların maraqlarının qorunması" göstəricisi üzrə isə 8 pillə irəliləyərək 2-ci pilləyə qalxıb.

Əvvəlki hesabatlara nəzər yetirdikdə Azərbaycanın böyük irəliləyişinin şahidi olarıq. Əgər ölkəmiz Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2017" hesabatında 65-ci pillədə qərarlaşmışdısa, bir il sonra "Doing Business 2018" hesabatında 8 pillə yüksələrək 57-ci yeri tutdu. 190 ölkənin biznes mühitini qiymətləndirən hesabata əsasən, Azərbaycan Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri sayılırdı.

"Doing Business 2019" hesabatında Azərbaycan dünyanın bir çox ölkələrini geridə qoymaqla MDB-də lider mövqeyə yüksəldi. Hesabatda deyilirdi ki, Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib.

Onu da vurğulayaq ki, "Doing Business" komandası ölkələr üzrə aparılan islahatları həm dövlət, həm də çoxsaylı biznes nümayəndələrindən, habelə məşhur konsaltinq şirkətlərindən toplanan sorğulara verilən cavablar əsasında qiymətləndirir. Aparılan islahatların yoxlanılması məqsədilə ölkələrə ayrı-ayrılıqda xüsusi ekspert missiyaları göndərilir, islahatların real praktikada tətbiqi yerində müvafiq meyarlarla araşdırılır. Nəticədə hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeləri müəyyən edilir.

ABŞ-ın tanınmış "The Heritage Foundation" analitik mərkəzi tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi-2019"da Azərbaycan ən böyük irəliləyiş edən ölkə kimi təqdim olunub.

Bütün bunlar cənab İlham Əliyevin məqsədyönlü və köklü iqtisadi islahatlarına verilən beynəlxalq qiymətdir. Əksər beynəlxalq reytinq agentlikləri tərəfindən ard-arda ölkə iqtisadiyyatının real vəziyyəti haqqında müsbət mövqe nümayiş etdirməsi təbii ki, təsadüfi deyil. Bütün hesabatlarda Azərbaycanın adının yüksəlməsini müşahidə edirik. Azərbaycanın iqtisadi sahədə qazandığı bu nailiyyətlər, eləcə də ölkədə həyata keçirilən liberal iqtisadi islahatlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl və qətiyyətli addımlar dünyanın aparıcı iqtisadi və maliyyə institutlarının, reytinq agentliklərinin, iqtisadi azadlıq səviyyəsini tədqiq edən fond və mərkəzlərin diqqətindən kənarda qalmır və yüksək qiymətləndirilir.

Bu bir həqiqətdir ki, Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi 16 ildə iqtisadi strategiyanın prioritet istiqamətlərindən biri olan sahibkarlığın inkişafına daim önəm verib. Məhz buna görə də biznes və investisiya mühiti davamlı olaraq yaxşılaşıb, müvafiq qanunvericilik bazası təkmilləşib, inzibati prosedurlar sadələşib. Vergi güzəştlərinin tətbiqi, iqtisadiyyatın real sektoruna maliyyə dəstəyinin artırılması nəticəsində Azərbaycanda güclü sahibkarlar ordusu formalaşıb, sahibkarlıq iqtisadi inkişafın aparıcı qüvvəsinə çevrilib. Ölkədə güzəştli kreditlər hesabına rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən müəssisələrin qurulması sahibkarlığın inkişafında mühüm rol oynamaqla yanaşı, ərzaq və sənaye məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsində, respublikanın ixrac potensialının artırılmasında böyük əhəmiyyətə malikdir.

*Ardı 4-cü səh.*

## Ukraynanın Prezidenti zati-aliləri cənab Vladimir Zelenskiyə

Hörmətli cənab Prezident!

Ukraynanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Ukrayna əlaqələri, ölkələrimiz arasındakı ənənəvi dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın qarşılıqlı mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Ukrayna xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2019-cu il*

## Azərbaycanın BMT-dəki daimi nümayəndəliyi Baş katib Antonio Quterreşə məktub ünvanlayıb

Azərbaycanın BMT-dəki daimi nümayəndəliyi təşkilatın Baş katibi Antonio Quterreşə məktub ünvanlayıb. Bu barədə AZƏRTAC-a daimi nümayəndəlikdən məlumat verilib.

Müvəqqəti işlər vəkili Tofiq Musayev tərəfindən imzalanan məktubda deyilir ki, Ermənistanın daimi nümayəndəsinin BMT-nin Baş katibinə ünvanladığı 2019-cu il 29 iyul tarixli məktuba Azərbaycan ərazisində Ermənistan tərəfindən yaradılmış qondarma irqçi rejim tərəfindən "Davamlı İnkişaf Məqsədlərinin icra olunması ilə bağlı milli hesabat" adlı sənəd əlavə edilib. Biz Ermənistanın BMT-yə üzvlüyündən açıq-aşkar sui-istifadə edərək beynəlxalq ictimaiyyəti bu cür tamamilə saxtalaşdırılmış vasitələrlə yanlış istiqamətə yönləndirməsinə qəti şəkildə etirazımızı bildiririk. Biz BMT-də Ermənistan tərəfindən bu qanunsuz rejimin kağızlarının yayılmasına bir daha kəskin etirazımızı bildiririk. Bu cür sənədlər, hər şeydən əvvəl, heç bir hüquqi qüvvəyə malik deyil və onları rədd edərək nəzərə almamaq lazımdır.

Məktubda qeyd edilir ki, Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini - Dağlıq Qarabağ regionunu və işğal olunmuş digər rayonları - "Dağlıq Qarabağ Respublikası" və ya "Arsax" kimi bir çox fərqli qondarma adlarla təqdim etmək cəhdləri hüquqi cəhətdən etibarsız hesab edilir.

*Ardı 2-ci səh.*

## Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi bəyanat yayıb

Qafqaz Müsəlmanları İdarəsi nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi 22 avqust tarixinin BMT tərəfindən din və etiqad zəminində zorakılıq aktları qurbanlarının Anım Günü kimi təsis edilməsi ilə bağlı bəyanat yayıb. Bu barədə AZƏRTAC-a Qafqaz Müsəlmanları İdarəsindən məlumat verilib.

Bəyanatda deyilir: "Bu il Birləşmiş Millətlər Təşkilatı 22 avqustu din və etiqad zəminində zorakılıq aktları qurbanlarının Anım Günü olaraq təsis edib. İstənilən zəmində və müstəvidə baş verən zorakılıq hallarını qətiyyətlə pisləyərək din və etiqad mənsubiyyəti əsnasında zorakılıqla üzləşən insanlara dəstək olur, onlarla həmrəyliyimizi bildiririk.

*Ardı 2-ci səh.*

## Dövlət kənd kooperativlərinin də yanındadır





Azərbaycan kənd təsərrüfatı sahəsində kooperativləşmə hərəkatının ərəfəsindədir. Artıq "pionerlər" də var.

Ötən ilin oktyabrında "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" çərçivəsində Sabirabadın Yaxadəllək-Beşdəli kəndlərinin ərazisində 133 ailə könüllü "Birlik İstehsal Kooperativi"ni təsis ediblər. Bu ilin martında isə rayonda ikinci - 231 ailənin birləşdiyi "Axısxalılar toxum istehsal kooperativi" yaradılıb.

Aqrar sektorun indiki mərhələsində kənd kooperativləri xırda pay torpaqlarının birləşdirilməsinə nail olmaqla istehsaldakı pərakəndəliyin aradan qaldırılmasına, məhsuldarlığı artırmaqla kənd əhalisinin iqtisadi maraqlarını qorumasına imkan yaradacaq. Ümumiyyətlə, kooperasiyaların qarşısında duran hədəflər istehsalın səmərəliliyinin yüksəldilməsi, məhsulların rəqabət qabiliyyətinin artırılması, mexanikləşdirməyə nail olmaq, innovativ texnologiyalar hesabına xarici bazarlara çıxış əldə etməkdən ibarətdir.

*Ardı 3-cü səh.*

## Səngəçal terminalı

### Regionun neft-qaz ixracı mərkəzi Bakıdan 55 kilometr cənubda yerləşir

Dünyanın ən böyük neft-qaz terminallarından biri Səngəçalda, Bakıdan 55 kilometr cənubda, Xəzərin sahilinə yaxın ərazidə yerləşir. Səngəçal terminalı regionun neft-qaz ixracı mərkəzi kimi mühüm əhəmiyyət daşıyır.

Hazırda terminalın texniki emal sistemlərinin gündəlik gücü 1,2 milyon barel neft və "Şahdəniz" qazı üçün təqribən 80 milyon standart kubmetr mavi yanacaqdır. "Azəri-Çıraq-Günəşli"nin səmt qazı da daxil olmaqla, ümumi qaz emalı və ixracı gücü isə gündəlik təqribən 100 milyon standart kubmetrdir. Neft Səngəçaldan əsasən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri və Qərb İxrac Boru Kəməri (QİBK) marşrutları vasitəsilə nəql edilir. Qaz isə Cənubi Qafqaz Boru Kəməri (CQBK), CQBK-nın genişləndirilmiş sistemi ilə və terminalın qaz emalı obyektlərini "Azəriqaz"ın qazpaylama sistemləri ilə birləşdirən, SOCAR-a məxsus kəmərlə ixrac olunur.



Səngəçal terminalı "Əsrin müqaviləsi" imzalandıqdan sonra İlkin Neft Layihəsi (İNL) çərçivəsində inşa edildi. Obyekt yalnız "Çıraq" neftini ixrac etmək gücündə layihələndirilmişdi. Odur ki, növbəti yataqlardan gözlənilən yüksək hasilat terminalın genişləndirilməsi zərurətini meydana çıxardı.

Genişləndirmə işlərinə 2002-ci il fevralın 20-də start verildi. Soyuq bir gün idi. Yarımsəhra zonada yerləşdiyindən Səngəçalın şaxtası-sazağı daha sərt olur. Ona görə də təməlqoyma mərasimini keçirmək üçün çölün düzündə çadır qurmuşdular. Buraya əməliyyatçı şirkətin və tərəfdaşlarının, podratçıların, medianın nümayəndələri toplaşmışdı.

*Ardı 4-cü səh.*

# YAP-ın Suraxanı, Sabunçu və Pirallahı rayonlarının ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib





Avqustun 23-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində partiyanın Suraxanı, Sabunçu və Pirallahı rayonlarının ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, müşavirədə çıxış edən Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın uğurla inkişaf etdiyini, vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addımların atıldığını bildirib. O, bu ilin əvvəlindən dövlət başçısı tərəfindən mühüm sosial islahatların həyata keçirildiyini və bunun nəticəsində ölkəmizdə əməkhaqlarının, təqaüdlərin və sosial müavinətlərin əhəmiyyətli dərəcədə artırıldığını diqqətə çatdırıb.

Bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyən YAP sədrinin müavini partiyanın bu seçkilərə hazırlığı məsələləri haqqında da fikirlərini bildirib. Yeni Azərbaycan Partiyasının böyük gücə və cəmiyyətimizdə yüksək nüfuza malik olduğunu deyən Əli Əhmədov partiyanın siyasətinin xalqımız tərəfindən dəstəkləndiyini söyləyib.

Qeyd edilib ki, sosial-iqtisadi sahədə, eləcə də digər sahələrdə həyata keçirilən islahatlar Azərbaycan hökumətinin imkanlarının artması nəticəsində reallaşdırılır. Hər bir dövlətin həyata keçirdiyi funksiyalar çərçivəsində iki vəzifə fundamental məna və əhəmiyyət kəsb edir. Onlardan biri təhlükəsizliyin təmin edilməsi, ikincisi, insanların rifahının yaxşılaşdırılmasıdır. Sevindirici haldır ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiqlik, əmin-amanlıq, təhlükəsizlik təmin olunur. Bu gün Azərbaycan dünyanın ən sabit ölkələrindən biridir. İndiki halda dünyanın bir çox ölkələrində baş verən qanlı toqquşmalar, fəlakətlər, müharibələr fonunda Azərbaycanda mövcud olan sabitlik insanların həyatı üçün böyük sərvətdir. Bu sərvət Ulu Öndər Heydər Əliyevin siyasətinin Azərbaycana verdiyi ən böyük nemətlərdən biridir. Prezident İlham Əliyev bu strategiyanı uğurla davam etdirir.

YAP sədrinin müavini onu da diqqətə çatdırıb ki, partiyanın üzvləri Azərbaycanın uğurlarını ictimaiyyət arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidirlər. Çünki müstəqil Azərbaycanın inkişafını və güclənməsini gözü götürməyən dairələr, o cümlədən radikal müxalifət sosial şəbəkələr vasitəsilə ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Bu dairələrin əsl niyyətləri Azərbaycan cəmiyyətində ifşa olunmalıdır.

Sonra müşavirə iştirakçılarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

# Azərbaycanın BMT-dəki daimi nümayəndəliyi Baş katib Antonio Quterreşə məktub ünvanlayıb

*Əvvəli 1-ci səh.*

Bu, beynəlxalq hüququ, Azərbaycanın Konstitusiyasını və qanunvericiliyini, Birləşmiş Millətlər Təşkilatı tərəfindən coğrafi adların beynəlxalq standartlaşdırılması qaydaları və prinsiplərini açıq-aşkar pozur. Bu cür cəhdlər açıq-aşkar tarixi təhrif etmək və saxtalaşdırmaqdır, eləcə də Azərbaycanın işğal edilmiş ərazilərindəki mədəni və tarixi irsinin bütün izlərini silmək cəhdidir.

Hamıya məlumdur ki, Ermənistan silahlı qüvvələrindən istifadə edərək Azərbaycanın bir hissəsini, o cümlədən Dağlıq Qarabağ regionunu, onun ətrafındakı yeddi rayonu və bəzi digər əraziləri işğal edib və işğal etdiyi ərazilərdə erməni olmayan bütün şəxslərə qarşı etnik təmizləmə həyata keçirib. Bu təcavüz saya-hesaba gəlməyəcək qədər çox insan faciəsi və əzablarına səbəb olub. Ermənistan tərəfindən başladılan bu müharibə on minlərlə insanın həyatına son qoyub, şəhərləri, rayonları və kəndləri xarabalığa çevirib və 1 milyondan çox azərbaycanlının məcburi şəkildə öz evlərindən və mülkiyyətlərindən sürgün edilməsinə səbəb olub. Bu münaqişə nəticəsində minlərlə insan itkin düşüb.

Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin qeyri-qanuniliyi beynəlxalq səviyyədə dəfələrlə bəyan edilib. BMT Təhlükəsizlik Şurası özünün 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələrində Azərbaycana qarşı istifadə olunan güc tətbiqini və ərazilərin işğalını qınayıb, Azərbaycanın ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmətini bildirib, güc tətbiq edərək əraziyə sahib olmağın yolverilməzliyini bildirib. Ermənistanın ərazi iddialarına və təcavüzkar hərəkətlərinə cavab verərkən BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edib və Ermənistandan işğal edilmiş ərazilərdən işğalçı dəstələrin dərhal, tamamilə və qeyri-şərtsiz çıxarılmasını tələb edib. Bir sözlə, Təhlükəsizlik Şurası silahlı gücün Azərbaycana qarşı tətbiq olunduğunu təsdiqləyib, bu cür hərəkətlərin qeyri-qanuni olduğunu bildirib, bunu açıq-aşkar suverenliyin və ərazi bütövlüyünün pozulması kimi qiymətləndirib. Ermənistan Respublikası öz hərbi sursatlarının istifadəsi ilə Dağlıq Qarabağ münaqişəsində ilk zamandan bəri mühüm dərəcədə iştirak edib. Bununla da sözügedən ərazilərin əldə olunmasına və nəzarət altında saxlanılmasına həlledici dəstək verib və dəstək verməkdə davam edir. Həmin ərazilərdəki rejim Ermənistanın göstərdiyi hərbi, siyasi, maliyyə və digər dəstəklərlə ardıcıl olaraq Dağlıq Qarabağda və ətraf ərazilərdə effektiv nəzarəti həyata keçirir.

Bundan əlavə, Davamlı İnkişaf Məqsədləri ilə bağlı məsuliyyətsiz spekulyasiyalara yol açan Ermənistan nədənsə yaddan çıxarır ki, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı 2030-cu il Gündəliyinə əsasən Könüllü Milli hesabatların təqdim edilməsi BMT-yə üzv olan dövlətlər üçün nəzərdə tutulub və həmin hesabatlar dövlət tərəfindən nizamlanır və dövlətin himayəsi altında hazırlanır. Ən əsası, Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı 2030-cu il Gündəliyində qeyd olunduğu kimi, dövlət və hökumət başçıları, eləcə də yüksəksəviyyəli nümayəndələr bu Gündəliyin beynəlxalq hüquqa uyğun olaraq dövlətlərin hüquq və öhdəliklərini nəzərə alaraq həyata keçirilməsini yekdilliklə bəyan ediblər və dövlətlərin ərazi bütövlüyü və siyasi müstəqilliyinə hörmət olunmasının vacibliyini bir daha təsdiqləyiblər. Belə bir şəraitdə Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində yaratdığı qanunsuz marionet rejimini təbliğ və təşviq etməklə beynəlxalq ictimaiyyətin mövqeyinə tamamilə hörmətsiz yanaşdığını və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüququn ümumi qəbul edilmiş norma və prinsiplərinə riayət etmək istəmədiyini nümayiş etdirir. Bu cür hərəkətlər, eyni zamanda, Ermənistanın siyasətinin Dağlıq Qarabağ münaqişənin siyasi yolla həlli məqsədlərinə necə zidd olduğunu göstərir.

Ermənistan hökuməti dərk etməlidir ki, başqa bir suveren dövlətin ərazisinin ələ keçirilməsi heç vaxt onun istədiyi siyasi və hüquqi nəticəni verməyəcək. Şübhəsiz ki, rəsmi İrəvan öz silahlı qüvvələrini Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən və bütün işğal olunmuş ərazilərindən çıxarmağa məcbur olacaq. Təxribatlara vaxt sərf etmək əvəzinə, Ermənistan bu dayanıqsız status-kvonun uzadılması kimi mənfur niyyətlərindən əl çəkməli və öz beynəlxalq öhdəliklərini vicdanla yerinə yetirməlidir.

# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Avqustun 23-də Vergilər naziri Mikayıl Cabbarov Qubada 3 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında vətəndaşları qəbul edib.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, qəbulda Quba, Qusar, Xaçmaz və Şabran rayonlarından olan sakinlər iştirak ediblər.

Qəbula gələn vətəndaşlar əsasən yaranmış vergi borcları, vergi orqanlarında işlə təminat, vergi uçotunun aparılması və e-qaimələrin tətbiqi, kənd təsərrüfatı məhsullarının ixracı, vergi qanunvericiliyinin və inzibatçılığının tətbiqi sahəsində qarşılaşdıqları məsələlərlə əlaqədar müraciət ediblər.

Vətəndaşların müraciətləri dinlənilib və nazirliyin struktur bölmələrinə aidiyyəti tapşırıqlar verilib.

* * *

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyi tərəfindən növbəti vətəndaş qəbulları keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, avqustun 23-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Tovuz şəhərində, nazirin birinci müavini Əli Abdullayev isə Ağstafada vətəndaşları qəbul edib.

Nazirin qəbulunda Tovuz və Qazax rayonları, nazirin birinci müavininin qəbulunda Ağstafa sakinlərinin müraciətlərinə baxılıb. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyi nəqliyyat, telekommunikasiya, poçt xidmətləri və digər məsələlərlə bağlı vətəndaşları dinləyib. Bir sıra vətəndaş müraciətləri yerindəcə öz müsbət həllini tapıb. Araşdırılması tələb olunan müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq həlli ilə əlaqədar nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib.

Eyni zamanda, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan müraciətlər müvafiq qurumlara ünvanlanması üçün qeydiyyata alınıb.

* * *

Kənd Təsərrüfatı naziri İnam Kərimov avqustun 23-də Beyləqan Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Beyləqan, Füzuli və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 76 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciətləri əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

* * *

Avqustun 23-də Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov Göygöl rayonunda Daşkəsən, Goranboy, Göygöl, Samux rayonlarından, Gəncə və Naftalan şəhərlərindən olan vətəndaşları qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 20-dən çox vətəndaşın iştirak etdiyi qəbulda müraciətlər əsasən idman qurğularının lazımi avadanlıqla təminatı, fəxri adların və məşqçilik dərəcələrinin verilməsi, Gənclər evinin, olimpiya idman kompleksinin və digər idman qurğularının tikintisi ilə bağlı olub. Eyni zamanda, işlə təminat və şəxsi məsələrlə bağlı da müraciətlər edilib.

Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlərin qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib. Digər müraciətlər isə baxılması üçün icraya yönəldilib.

# Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi bəyanat yayıb

*Əvvəli 1-ci səh.*

Dini mənsubiyyət və etiqadına görə insanların bu və ya digər zorakılıq halları ilə qarşılaşmasını önləmək, qarşısını qətiyyətlə almaq məramı ilə dünyanın siyasi, ictimai, elmi və dini institutları ilə əməkdaşlıq etməyə, səylərimizi birləşdirməyə hazır olduğumuzu bəyan edirik.

XXI əsrdə dini etiqada görə zorakılığa məruz qalma təhlükəsi sivil dünyaya başucalığı gətirmir. Təbii insan haqlarından olan din, etiqad azadlığının təmini olduqca mühümdür. Bu sahədə hər hansı zor, təhdid qətiyyən yolverilməzdir. İnsanların məscidlərdə, kilsələrdə, sinaqoqlarda, digər dini məbədlərdə ibadət zamanı terrora məruz qalması kimi hallar ikrah və hiddət doğurur. Misirdə qibti zəvvarlara təcavüz, Fələstin, Suriya, Əfqanıstan, Liviyadakı durum, Yeni Zelandiya, Şri-Lanka, Pitsburqda və digər məkanlardakı dini məbədlərdə törədilən mənfur terror hadisələri sivilizasiyalar arasında qütbləşməni dərinləşdirir.

Biz din və etiqad zəminində zorakılıq aktları qurbanlarını yad edərkən bir məqamı nəzərdən qaçırmamalıyıq ki, bu hallar insan qırğını ilə yanaşı, maddi və qeyri-maddi mədəni irsin məhvi ilə müşayiət olunur. Belə zorakılıq aktları insanlara fiziki zərbə ilə yanaşı, mənəvi zərbələr vurur, minilliklər ərzində formalaşmış dini-mənəvi irs abidələrini məhv etmək, mədəni ənənələri aradan qaldırmaq kimi məkrli niyyət güdür. Beləliklə, məhv edilən dini-mənəvi abidələr də din və etiqad zəminində zorakılıq aktlarının qurbanları kimi nəzərdən keçirilməlidir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanın işğal olunmuş əzəli torpaqlarında xalqımızın məhv edilən, siması dəyişdirilən dini mənəviyyat abidələri belə bir vandal münasibətlə üzləşib.

Təəssüflər olsun ki, qloballaşan dünyada siyasi iddialar, iqtisadi maraqlar səbəbindən mənəvi-əxlaqi dəyərlər çox vaxt nəzərə alınmır ki, bu da insan hüquqlarının təmin olunması sahəsində ikili standartlara yol açır. Məsələn, Yaxın Şərqdə baş verən faciəvi hadisələr fonunda miqrant axınını yaradan səbəbləri aradan qaldırmaq əvəzinə, insanlıq dramı yaşayan məcburi miqrantlara qarşı antihumanist münasibət, irqçi və aqressiv davranış nümayiş etdirilir ki, bu da din və etiqad zəminində zorakılıq aktı kimi səciyyələndirilə bilər.

Sülh və ədalətin təmininə xidmət edən dəyərlərin sırasında dinc birgəyaşayış, qarşılıqlı anlaşma mədəniyyəti, humanist dəyərlər önəmli yer tutur. Bu gün sülhün qorunması probleminin həllində, habelə terrorizm, ksenofobiya, antisemitizm, islamofobiya, ekstremizm və radikalizmin qarşısının alınmasında, dünyada sabitlik və əmniyyətin bərqərarı üçün dövlət rəhbərlərinin, ictimai və dini liderlərin birgə, davamlı əməkdaşlığı vacibdir. Dünya miqyasında taleyüklü qərarlar verilərkən dünya dini liderlərinin mənəvi, dini-əxlaqi dəyərləndirmələri, müdrik tövsiyə və məşvərətlərinə ehtiyac vardır. Bu baxımdan, bu gün milli, irqi, dini ekstremizmi önləyə biləcək multikultural həyat tərzinin qloballaşan dünyaya təqdim edilməsi vacibdir.

Bütün dinlər zor və şiddətə yox deyir. Biz, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin üzvləri dünyanın bütün siyasi və dini liderlərinə müraciət edərək sülhün, sabitliyin qorunması naminə səylərini artırmağa, bu yolda dinlərarası, mədəniyyətlərarası əməkdaşlığın imkanlarından bəhrələnməyə çağırırıq. Bütün bu təzahürlərin aradan qaldırılması işində dövlət rəhbərlərinin, ictimai və dini qurum liderlərinin birgə əməkdaşlığını vacib sayırıq".

# *Hüsnan Bəy FƏNANİ:* "IV İndoneziya mədəniyyət festivalı ölkəmizin Azərbaycanda daha yaxından tanınmasına töhfə verəcək"



Avqustun 23-də İndoneziyanın Azərbaycandakı səfirliyi sentyabrın 11-15-də Bakıda keçiriləcək IV İndoneziya mədəniyyət festivalı ilə bağlı tədbir təşkil edib.

AZƏRTAC xəbər verir ki, İndoneziyanın ölkəmizdəki səfiri Hüsnan bəy Fənani festivalın sentyabrın 11-də Heydər Əliyev Sarayında, 13-15-də isə Fəvvarələr meydanında keçiriləcəyini bildirib. Səfir qeyd edib ki, əvvəlki illərdə olduğu kimi, budəfəki festival da İndoneziyanın tarixi, mədəniyyəti, milli mətbəxi, adət-ənənələri ilə bağlı ən gözəl nümunələri Azərbaycanda təqdim edəcək. Bu festival İndoneziya xalqının Azərbaycanda daha yaxından tanınmasına mühüm töhfə verəcək. Festivalda İndoneziyanın Təhsil və Mədəniyyət, Gənclər və İdman, eləcə də aidiyyəti digər nazirlikləri təmsil olunacaq. Eyni zamanda, İndoneziyadan iqtisadiyyat, turizm və digər sahələri təmsil edən iş adamları da Azərbaycana gələcəklər. Musiqi, incəsənət və ədəbiyyat sahəsinin tanınmış nümayəndələri də festivalda iştirak edəcəklər.

Belə tədbirlərin ölkələrimiz arasında münasibətlərin səviyyəsini də nümayiş etdirdiyini vurğulayan diplomat festivalda Azərbaycan Dillər Universitetinin tələbələrinin də çıxış edəcəklərini bildirib: "Azərbaycan Odlar yurdu, İndoneziya isə Odlar halqası ölkəsidir. İndoneziya vulkanlarla əhatə olunub. Bu bənzərlik xalqlarımızı bir-birinə bağlayır. Azərbaycanın müstəqilliyinin bərpasından ötən 27 ildə ölkələrimiz arasında əməkdaşlıq genişlənib və bu gün də sürətlə inkişaf edir".

Ölkəsinin Azərbaycanı hər zaman dəstəklədiyini deyən səfir vurğulayıb ki, İndoneziya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. İndoneziya parlamentinin sədri yaxın günlərdə Bakıda səfərdə olub və ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha bəyan edib.

Tədbirdə iştirak edən İndoneziya parlamentinin nümayəndəsi Həsən Hüseyn ölkəsi ilə Azərbaycan arasında siyasi və iqtisadi əməkdaşlıqdan bəhs edib. O deyib ki, dövlətlərarası münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Bu əməkdaşlıq elm, təhsil və mədəniyyət sahələrində də özünü göstərir.

Təqdimat mərasiminin sonunda İndoneziyanın milli musiqiləri səsləndirilib.

## Türkiyədə İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunan xatirə sikkəsi buraxılıb




Türkiyə zərbxanası ölkəmizin Ankaradakı səfirliyinin təşəbbüsü ilə dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili"nə həsr olunan bürünc sikkə xatirə pulu buraxıb. Xatirə pulunun ön tərəfində İmadəddin Nəsiminin şəkli, "İmadeddin Nesiminin Doğumunun 650. Yılı" yazısı, arxasında isə "Türkiye Cumhuriyeti 2,5 Lira" yazısı yer alıb.

Azərbaycanın Ankaradakı səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, Prezident İlham Əliyevin 15 noyabr 2018-ci il tarixli "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi" və 11 yanvar 2019-cu il tarixli "Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi" haqqında sərəncamlarından irəli gələn layihələrin icrasını təmin etmək məqsədilə Türkiyə Respublikası Zərbxanasının rəhbər şəxsləri ilə görüş keçirilib və Nəsiminin adının əbədiləşdirilməsi məqsədilə xatirə pulunun buraxılması ilə bağlı razılıq əldə olunub.

# Qarabağ müharibəsi veteranları "Qazax" əlahiddə sərhəd diviziyasında olublar



Qarabağ müharibəsi veteranlarının və bloggerlərin bir qrupunun müraciəti əsasında Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyi münasibətilə Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinə, təmas xəttində yerləşən sərhəd döyüş məntəqələrinə səfəri təşkil olunub.

Səfər çərçivəsində Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsində təmas xəttində yaradılmış sərhəd müdafiə və mühafizə infrastrukturu, sərhəd döyüş məntəqələrində və döyüş mövqelərində sərhədçilərin xidməti-döyüş fəaliyyəti və istirahət şəraiti ilə yaxından tanışlıq olub, şəxsi heyətə Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyi münasibətilə təbrik və arzular çatdırılıb.

Müharibə veteranlarına Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının yerli bölmələri ilə Müdafiə Nazirliyinin hərbi hissə və bölmələri arasında yüksəksəviyyəli qarşılıqlı əlaqə, yerli icra hakimiyyəti və bələdiyyə orqanları ilə sərhədçilər arasında sıx əməkdaşlıq münasibətləri barədə geniş məlumat verilib. Onlar "Sərhədi bütün xalq qoruyur" ifadəsinin gerçəkləşdirilməsi üzrə görülən işlərlə tanış olublar.

***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Novruzlu, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.




# Tarlalar yavaş-yavaş ağ örpəyə bürünür



Sabirabad ölkənin böyük potensiala malik kənd təsərrüfatı rayonlarındandır. Aqrar sektorun dinamik inkişafını təmin etmək üçün dövlət səviyyəsində həyata keçirilən kompleks tədbirlər bərəkətli Muğan düzündə, o cümlədən Sabirabadda böyük razılıqla qarşılanmışdır. Reallaşan meliorasiya tədbirləri, nəhəng sənaye parklarının, müasir tələblərə cavab verən heyvandarlıq komplekslərinin yaradılması, sahibkarlığın inkişafına verilən güclü dəstək rayonda aqrar sektorun yüksəlişinə etibarlı zəmin yaratmışdır.

Pambıqçılığın inkişafı ilə bağlı son illər Sabirabadda xeyli işlər görülmüşdür. Əlavə torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi hesabına rayonda pambıq əkini sahələri ildən-ilə genişləndirilir, əkinlərin suvarma suyu ilə təmin edilməsində problemlər tədricən aradan qaldırılır. Moranlı, Sarxanbəyli, Bala Həşimxanlı, Əlibəyli və digər kəndlərin suvarma təminatının yaxşılaşdırılması məqsədilə mənbəyi Kür çayından olmaqla 30 kilometr uzunluğunda "H" kanalının tikintisi artıq başa çatmışdır. Layihə bölgəyə 11,498 hektar sahənin suvarma suyu ilə etibarlı təminatına imkan yaradır. Adları çəkilən kəndlərdə illərdən bəri davam edən su problemi artıq tamamilə aradan qaldırılmışdır.

Hazırda "Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorativ tədbirlərin aparılması" layihəsinin icrasına başlanmışdır. Layihə həyata keçirildikdən sonra uzun illər suya həsrət qalmış 13866 hektar sahə suvarma suyu ilə təmin ediləcək. Bundan əlavə, rayon üzrə 54 su nasosu quraşdırılmış, 7 nasos əsaslı, 23 nasos cari təmir edilmiş, 4 yeni hidrotexniki qurğu quraşdırılmış, 258 hidrotexniki qurğuda əsaslı və cari təmir işləri görülmüş, 622 kilometr su kanalı, 257,6 kilometr diren-kollektor şəbəkəsi lildən təmizlənmişdir.

Bütün bu tədbirlər rayonda pambıqçılığın dinamik inkişafını təmin edir. Rayonda "MKT IK" MMC Sabirabad rayon filialı, "Azərpambıq" MMC, "P-Aqro" MMC, "Aqro Az" MMC birbaşa pambıqçılıqla məşğul olan müəssisələrdir. Həmin müəssisələrlə rayonun torpaq istifadəçiləri arasında bağlanmış müqavilələrə əsasən, cari il 8,630 hektar sahədə pambıq əkilmişdir. Yaxşı haldır ki, bu il pambıq əkini münbit olan pay torpaqlarında və azot edilmiş sahələrdə aparılmışdır. Bu da öz növbəsində yaxşı bitiş alınmasını, bitkilərin normal inkişafını təmin etmişdir.

Pambıq yığımına az qalır. Taraş qozalar yavaş-yavaş açılıb ağ lopalara çevrilir. Göz işlədikcə uzanan geniş tarlalar tezliklə başdan-başa ağ örpəyə bürünüb onu becərənlərin üzünü ağ edəcəkdir. Həmişə olduğu kimi, rayonun qabaqcıl fermerlərindən Mövsüm Nərimanovun, Fəxrəddin Əsgərovun, Baba Dövlətovun və Vaqif Abbasovun başçılıq etdikləri kollektivlər yenə də qabaqcıllıq nümunəsi göstərmək, yüksək məhsuldarlığa nail olmaq əzmindədirlər.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Aqroparklar ərzaq təhlükəsizliyinin əsas təminatçısına çevrilir

Son illər həyata keçirilən islahatlar həm ölkənin sosial-iqtisadi inkişafında, həm də iqtisadiyyatın neft amilindən asılılığının azaldılmasında mühüm rol oynayır. Dövlət başçısı İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı çoxsaylı sərəncam və fərmanlara əsasən bu gün aqrar sektorda elə bir sahə yoxdur ki, orada inkişaf olmasın.

Əhalinin ərzaq təminatında başlıca rolu olan aqroparkların yaradılması isə bu inkişafa dinamik xarakter verir. Məhz bunun nəticəsidir ki, artıq qısa vaxt ərzində ölkə ərazisində 21 aqropark fəaliyyətə başlamışdır. İlin sonunadək isə onların sayının 50-yə çatdırılması nəzərdə tutulur.

Qazax rayonunda da geniş ərazini əhatə edən aqropark salınmış və onun inkişafı istiqamətində xeyli iş görülmüşdür. İkinci Şıxlı kəndində "İnvestel GROUP" MMC tərəfindən yaradılan aqropark həm kənd təsərrüfatının inkişafı, həm də yeni iş yerlərinin açılması baxımından olduqca böyük əhəmiyyətə malikdir.

Parkın torpaq sahələrinin suvarılması üçün 13,5 kilometr məsafədən su və bunun davamı kimi sahədaxili suvarma məqsədilə uzunluğu 18 kilometr olan yeraltı suvarma xətləri çəkilmişdir. Bundan əlavə, aqropark daxilində sahəsi 1600 kvadratmetr olan anbar, tutumu 2670 ton olan çoxfunksiyalı soyuducu anbar, ikimərtəbəli inzibati ofis binası tikilmiş, texnikaların saxlanması üçün böyük talvar quraşdırılmışdır.

Aqroparkın elektrik təchizatı üçün isə 13,2 kilometr uzunluğunda hava xətti çəkilmiş, müxtəlif güclü 4 transformator, həmçinin 3 nasos quraşdırılmışdır. Su ilə təminata gəldikdə, bu sahədə də az işlər görülməmişdir. Belə ki, Xram çayı sahilində sahilbərkitmə işləri görülərək irihəcmli nasos stansiyası və suqəbuledici inşa edilmiş, torpaqların su ilə davamlı təminatı üçün 2-ci və 3-cü pillə nasos stansiyalarının yanında hər birinin həcmi 4500 kubmetr olmaqla beton örtüklü 2 su anbarı inşa edilmişdir.

Aqroparkın idarə işləri üzrə şöbə müdiri Seymur Əhmədov söhbət zamanı dedi ki, həyata keçirilən tədbirlər nəticəsiz qalmır. "Cari il 300,05 hektarda kartof, 463 hektarda buğda, 140,1 hektarda arpa, 5 hektarda noxud, 5 hektarda yazlıq, 20 hektarda payızlıq yerkökü, 74,7 hektarda qarğıdalı, 44,50 hektarda isə soya əkmişik. Artıq taxıl biçini başa çatmışdır. Hazırda kartof və yerkökü yığılır. Yığılan məhsullar çeşidlənərək soyuducu anbarlara vurulur".

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Dövlət kənd kooperativlərinin də yanındadır

*Əvvəli 1-ci səh.*

İlk təcrübələr olduğu üçün kooperativ üzvlərinin bir sıra dəstəklərə, xüsusən xarici təcrübələrin yaxından öyrənilməsinə, təlim və maarifləndirməyə böyük ehtiyacları var. Bu ehtiyacı öyrənmək, gələcəkdə təcrübi layihələrin həyata keçirilməsi məqsədilə bu günlər Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) dəvəti ilə ölkəmizdə səfərdə olan Koreya Regionların İnkişafı İnstitutu və Koreya Kooperativ İnkişaf İnstitutunun nümayəndə heyəti Sabirabadın Yaxadəllək, eləcə də Axısxa kəndlərində olaraq kooperativ üzvləri ilə görüşlər keçirib, kooperativlərin inkişafı məsələlərini geniş müzakirə ediblər. Kooperasiyaların fəaliyyətinə hərtərəfli dəstək vermək niyyəti ilə Kənd Təsərrüfatı Nazirliyinin tabeli qurumlarının - Aqrar Xidmətlər Agentliyinin, "Aqrolizinq" ASC-nin, Aqrar Elm və İnnovasiya Mərkəzinin, Aqrar Tədarük və Təchizat ASC-nin əməkdaşları da kooperasiya üzvləri ilə müzakirələr aparıb. Görüşdə istehsal planlarının hazırlanması, əkin strukturunun qurulması, becərmə dövründə elmi-informasiya təminatının göstərilməsi, torpaqların aqrokimyəvi analizlərinin aparılması, güzəştli texnika, gübrə ilə təmin olunması diqqətə çatdırılıb. İstehsalın təşkili ilə bağlı çoxsaylı dəstəklərin göstəriləcəyi ilə bağlı səsləndirilmiş fikirlər kənd sakinləri tərəfindən müsbət qarşılanıb.

Sabirabad Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) direktoru Heydər Yaqubov bildirib ki, rayonda iki kooperativin yaradılması digər istehsalçılar arasında da xüsusi fəallığa səbəb olub. Xırda pay torpaqlarının səmərəli idarə olunmamasından əziyyət çəkən digər kəndlilər də birlik modellərinin yaradılması istiqamətində müzakirələr aparıblar.

Qonaqlar ötən əsrin əvvəllərindən başlamış kənd kooperasiyalarının yaradılmasında böyük təcrübə qazanmış öz ölkələrində əldə olunmuş nailiyyətlər haqqında danışaraq elmi-iqtisadi məsləhətlərini veriblər. "Cənubi Koreyada ilk kooperativ 1907-ci ildə qurulmuşdur. Bu illər ərzində birgə iqtisadi fəaliyyət xeyli təkmilləşmiş, bitkiçilik, istehsal, təchizat, balıqçılıq, kredit, satış, marketinq istiqamətləri üzrə ixtisaslaşmış və iri federasiyalarda təşkilatlanmışlar. Hər bir federasiya öz çətiri altında 300-dən çox kəndli kooperativlərini birləşdirir. 1961-ci ildən növbəti mərhələyə qədəm qoymuş kooperativləşmə hərəkatı nəticəsində bu gün büdcə göstəriciləri 50 milyard ABŞ dollarını ötüb və dünyanın ən böyük üçüncü "kooperativ ölkəsi" statusunu qazanmışıq. Misal çəkə bilərəm, təkcə istehlak kooperativlərinin sayı 391, büdcəsi isə 518 milyon ABŞ dollarıdır. Baxmayaraq ki, bizim ölkədə fermerə düşən əkin torpağı maksimum bir hektardır, lakin səmərəli birgə fəaliyyətin qurulması uğurlu nəticələr qazanmağa imkan verib. Əsas məsələ odur ki, torpaq adamları rasional təşəbbüslər ətrafında birləşməli, hər şeyi dövlətdən və ya kimlərdənsə gözləməməli, strateji baxışa sahib olmalıdırlar" deyə kiçik, orta, iri kooperativlərdə dəyər zəncirinin təhlili üzrə beynəlxalq ekspert Çanho Çoi bildirib.

Kooperativlərlə bağlı texnoloji transformasiyalar üzrə ekspert Jingon Ahn, layihələr üzrə menecer Sunq Kyunq sonda yerli fermerlərimizlə müzakirədə vacib addımlardan danışıblar. Yaxın vaxtlarda aparılan müzakirələrin nəticəsi olaraq Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) yeni yaranmış kooperasiyalarda təlim-maarifləndirmə, maliyyə-təsərrüfat hesabatlılığı üzrə layihələr həyata keçirməyi planlaşdırdıqlarını deyiblər.

Koreyalı qonaqlar Yaxadəllək və Axısxa kəndlərindən sonra Sabirabad DAİM-də də olaraq mərkəzin göstərdiyi xidmətlərlə yaxından maraqlanıblar, 40-dan çox xidmətin bir məkanda təqdim olunmasını yüksək qiymətləndiriblər.

*R.MƏMMƏDLİ,*
*"Azərbaycan"*





## Şamaxıda 5 kəndi birləşdirən yol yenidən qurulur

Şamaxı rayonunun Qonaqkənd-Həmyəli-İkinci Çaylı-İkinci Cabanı-Cabanı kəndlərini birləşdirən avtomobil yolu yenidən qurulur.

Başlanğıcını Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun 115-ci kilometrliyindən götürən bu yerli əhəmiyyətli yolun uzunluğu 26,1 kilometr olmaqla IV texniki dərəcəlidir.

Hazırda layihə çərçivəsində yolun eninin 10 metrədək genişləndirilməsi və profilə salınması işləri aparılır. Tikintinin aparıldığı ərazi 250 min kvadratmetrdən çoxdur.

Yenidənqurmadan sonra adları çəkilən kəndlər arasında nəqliyyat əlaqəsi yaxşılaşacaq, yetişdirilən məhsulun tez bir zamanda itkisiz bazara çıxarılması mümkün olacaq, yolboyu yaşayan 4 minə yaxın əhali rayon mərkəzinə və qonşu rayonlara rahat çıxış əldə edəcəklər.

## Qaxda payızlıq taxıl sahələri genişləndirilir

Payızlıq dənli bitkilərin səpini üçün indiyədək Qax rayonunun təsərrüfatlarında 7 min 485 hektar sahədə yay şumu çıxarılıb. Cari mövsümdə rayonda payızlıq taxıl əkini sahələrinin 13 min hektardan çox olacağı proqnozlaşdırılır.

Qax Dövlət Aqrar İnkişaf Mərkəzi bitkiçilik sektorunun müdiri Eyvaz Aslanov bildirib ki, payızlıqların səpini üçün rayonda fəaliyyət göstərən 6 toxumçuluq təsərrüfatı tərəfindən 2200 ton yüksək reproduksiyalı toxum fondu ayrılıb. Ayrılmış buğda və arpa toxumu təmizlənərək dərmanlanıb və səpinə hazır vəziyyətə gətirilib.

"Taxıl biçini başa çatdıqdan sonra təsərrüfatlarda 776 hektar sahədə təkrar qarğıdalı əkini də aparılıb. Bundan əlavə, təsərrüfatlarda yaz aylarında əkilmiş 1720 hektar dən qarğıdalı sahəsinə aqrotexniki qulluq işləri də davam etdirilir. Qarğıdalı yığımına sentyabrın ikinci yarısında başlanılacaq" deyə E.Aslanov məlumat verib.

## ADAU fermerlərə növbəti təlim keçib

Şəmkir rayonu Dövlət Aqrar İnkişaf Mərkəzində Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) əməkdaşları tərəfindən növbəti təlim keçirilib.

"Örtülü və açıq sahədə tərəvəz yetişdiriciliyi, onların xəstəlik və zərərvericilərdən mühafizəsi" mövzusuna həsr edilmiş təlimdə məqsəd yenibecərmə texnologiyaları və mübarizə üsullarını fermerlərə çatdırmaq olub.

Təlimçilər tərəvəz bitkilərinin xəstəlik və zərərvericilərlə mübarizədə yeni pestisidlərdən istifadə, pestisidlərlə iş zamanı texniki təhlükəsizlik qaydaları, inteqrir mübarizəyə keçidin təməl prinsipləri və yeni innovativ texnologiyaların tətbiqi kimi bir çox mövzular barədə iştirakçılara məlumat veriblər.

Sonda mövzu ətrafında geniş müzakirələr aparılıb və fermerlər tərəfindən verilən suallar ətraflı şəkildə cavablandırılıb.

# Bir bağbanın hekayəsi

## "Mən həmişə əlimin qabarına və bir də dövlətimə güvənmişəm"



"Bağa baxsan bağ, baxmasan dağ olar" deyib atalar. Amma Qubanın Çərtəpə kəndindən olan Rəşid baxdığı bağı dağdan da əzəmətli bilir, ona həmişə həyan durduğunu deyir: "Dara düşdüm, əlimdən gilas bağı tutdu, meyvəsi, bəhəri ilə köməyə gəldi". Ola bilər ki, kiməsə Rəşidin beş-on ağac haqqında dediyi qədərindən artıq görünsün. Amma onun hekayətinə qulaq asanda ixtiyarsız razılaşırsan ki, adam heç nəyi şişirtmir, hamısını olduğu kimi danışır.

"Dərd də gələndə azar kimi, batmanla gəlir". "Qətl günü" romanı belə başlayır. Rəşidin də üstünə bu ilin əvvəlindən çətinliklər ardı-arası kəsilmədən qoşun kimi yeridi. Əvvəl uşağı əsgər getdi. Ərköyün idi oğlu, ona görə tab gətirmədi, xəstələndi, bir xeyli hospitallarda müalicə aldı. Müalicə pulsuz idi, həkimlər də, adamın başının üstündə Allah var, gərək olanı deyəsən, uşağa yaxşı baxırdılar. Amma ölkənin bir başından durub o biri başına əsgər yanına bir neçə dəfə getmək heç də havayı başa gəlmir. Birincisi, tək getmirsən, ikincisi, uşağa mütləq evdən sovqat aparmalısan. Sözün qısası, nəticədə əlinə gələn yollara sovrulur.

Ondan əvvəlki ildə isə yoldaşı xəstələnmişdi, ödünü götürmüşdülər. Bu da bir xərc idi və yerini hələ doldurmamışdı. Həyat yoldaşı sağaldı, uşaq da dirçəldi, amma tərslikdən öz səhhətində problemlər yarandı, böyrəkləri sözə qulaq asmadı. Analizlər, yoxlamalar, ilkin müalicələr xeyli pul apardı, amma faydası olmadı.

Yaxşı mütəxəssisə müraciət etmək üçün Bakıya getmək lazım gəldi. Məlum oldu ki, daş var və bu daş da böyrəyin fəaliyyətini heçə salıb. Ya daş parçalanmalı, ya da böyrək götürülməlidir. Hər iki halda cərrahiyyə əməliyyatı qaçılmazdır.

Rəşid danışır ki, vallah, bu xəstəliklər bir yana, mənə ən çətin gələn iş toyları yola vermək idi:

- Lap dirəndik, ailə büdcəsi nə qədər böyük olsa da, rezin deyil ki, dartıb istədiyin qədər uzadasan. Bu ağırlığa tab gətirmək mümkün olmadı. Xırda-xırda dost-tanışdan, qohum-əqrabadan yığdığım borclar da qalaqlanıb şişdi, çıxdı kəllə-çarxa.

Kişi dara düşəndə birinci özünə güvənməlidir. Rəşid tövrünü pozmadan sonrasını danışdı: "Mənim də atamdan miras qalan bir hektar pay torpağım var. Yarısında alma bağı salmışam, yarısına da gilas əkmişəm. Almadan elə də qazanc qalmır, elə bil bağ səni özünə nökər tutur. Gilas isə sərfəli meyvədir. Qulluğu çətin olsa da, almadan daha çox nəvaziş istəsə də, qazancı babat olur. Mən də ona ümid edirdim ki, bu il meyvə bol olacaq, gilas üzümü ağardacaq, vəziyyəti yoluna qoya biləcəyəm".

Amma hələ tez imiş... İnsan dara düşəndə ya kimsə əlindən tutur, ya da nəyəsə ümid bəsləyir. Kişi adətən özünə, əlinin qabarına güvənər. Rəşidin də güvənc yeri əlinin qabarı və atasından miras qalan iki bağ idi. Əkib-becərmişdi, nazını çəkmişdi, yaxşı, pis bəhəri vardı. Amma dərd gələndə ara verməz ki...

Gilaslar çiçəkləyəndə qəfildən soyuqlar düşdü, bu da bağı bir xeyli bəhərdən saldı. Sonra güclü külək əsdi, bu da ikinci zərbə oldu. Rəşid bütün bağ sahibləri kimi, ağaclardan əl çəkmədi, cərrahiyyə əməliyyatında əvvəl böyrəyinə kateter qoymuşdular ki, kreatin aşağı düşsün, başqa cür cərrahiyyə əməliyyatına getmək mümkün deyildi: "Həkimlər tapşırmışdı ki, iş görməyim, sərt hərəkətlər etməyim, amma başqa yol da yox idi. Bağ ümid yerim idi, elə bilirdim ağaclar məni çağırırlar ki, gəl suyumuzu, dərmanımızı ver. Köhnə maşına əl gəzdirib ayağa qaldırdım, hər gün oturub gedirdim bağa, daş yol da adamı elə silkələyirdi ki, dəymişim qalıb kalım tökülürdü. Amma dözdüm, bağı qaldırdım".

Sən saydığını say, gör fələk nə sayır. Rəşid cərrahiyyə əməliyyatına Bakıya gələndə artıq bir ətək borcu yığılmışdı. Əlində qalan qəpik-quruşu da pul saymaq olmazdı. Çiçəyinin bir qismi soyuqdan, küləkdən tökülən bağ da nə məhsul verəcəkdisə, məlum deyildi.

31 il əvvəl oxuduğu fizika-riyaziyyat təmayüllü 1 nömrəli orta internat məktəbindən keçmiş sinif yoldaşları biləndə ki, Rəşid Bakıdadır, ona baş çəkdilər. Uzun illər bir-birindən xəbərsiz qalmışdılar. Yalnız internet ayaq tutub yeriyəndən sonra tapışmışdılar, artıq 4-5 il idi ki, hər yay görüşürdülər. Qalan vaxtları da əlaqəni kəsmirdilər, zəngləşirdilər, imkan olanda bir-birinin evinə qonaq gedirdilər. Yəni bir-birindən xəbərləri vardı. Güclü riyaziyyatçı olduqları üçün dolanışıqları da pis deyildi. Aralarında elələri var ki, öz biznesini qurub, bəziləri də Rusiyada iş sahibidirlər. Sosial şəbəkədə özlərinə qrup yaratmışdılar.

Rəşid xəstəxanaya girməmiş bu qrup artıq cərrahiyyə əməliyyatının xərcini ödəmişdilər. Amma Rəşidin bundan xəbəri yox idi. O, beynində plan cızırdı ki, Allah qoysa, bağının meyvəsini dərəcək, kimə borcu varsa, gilas mövsümündə qaytaracaq.

Əməliyyata bir gün qalmış sinif yoldaşları yığışıb Rəşidi qonaq aparırlar. Ha dirənir ki, qardaş, gəzə bilmirəm, böyrəyimdə kateter var, qonaqlıqda oturası halım yoxdur, uşaqlar əl çəkmirlər. Süfrə açırlar, məclis qururlar, ona da deyirlər ki, ürəyini sıxma, cərrahiyyə əməliyyatının pulu ödənib. O, cavab verəndə ki, borclu qalmaram, bağım meyvə verəcək, pulunuzu qaytaracağam, əsəbiləşiblər ki, üzünə belə baxmarıq, salam verməyik.

O, xəstəxanada əməliyyat olunanda Qubada yer-göy bir də yerindən oynadı, elə dolu yağdı ki, gəl görəsən. Bütün rayonda dolu düşən bağların hamısına, o cümlədən Rəşidinkinə əməlli-başlı ziyan dəydi. Lakin kənddən gəlib onu yoluxanlar Rəşidə bunu demədilər. Xəstəxanadan çıxıb rayona gələn Rəşid bir neçə gün sonra güc-bəla ilə maşına oturub, bağa baş çəkəndə gördü ki, əvvəlki gilasın yarısı da qalmayıb.

Heç nə demədi, amma yenə tez-tez bağına baş çəkdi, ağacları vaxtlı-vaxtında suvardı, gübrəsini, dərmanlarını verdi. Düzdür, meyvəsi az oldu, amma bazarda qiymət elə yuxarı oldu ki, əlinə ağlına gəlməyən pul gəldi və irili-xırdalı borclarının hamısını qaytardı. Bir sinif yoldaşlarından savayı. Onlara gedib desəydi ki, pulunuzu gətirmişəm, aləm qarışacaqdı.

Rəşid deyir ki, Tanrı dostlarını qorusun, amma insanın öz əli ilə qazandığı ruzidən şirin heç nə yoxdur:

- O bağı salanda alma əkmək istəyirdim, amma dostlarımdan biri gəlib "gilas qələmləri var, almaq istəmirdim, amma məcbur etdilər, almasan quruyacaqlar, hayıfdır, elə-belə götür ək" dedi. Onlara heyifsilənib əkmişdim, elə bil yiyələri yox idi, yetim idilər. Əkdim, sanki o ağaclara həyat verdim, indi onlar da elə bil əvəzini qaytarırlar.

Sonra da sözünə davam etdi: "Mənim üçün ən çətini yol idi, canım ağrıyırdı, ancaq bağdan da əl götürə bilmirdim. Bir şad xəbər də deyim, kəndimizə asfalt yol çəkməyə başlayıblar. İndi qızğın iş gedir. Bir neçə aya yəqin ki, yollar şüşə kimi olacaq. Çətin ağlım kəsir ki, buna mənim qədər kimsə sevinsin. Axı o yolda mənim qədər ağrıyan ikinci adam kəndimizdə yoxdur. İndi rayon mərkəzinə gedən yol da xeyli qısalıb, meyvə də daşınanda silkələnib zay olmayacaq. Mən həmişə əlimin qabarına güvənmişəm, amma çətin gündə bir dostlarım, bir də dövlətim dayaq olub".

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

“Əsrin müqaviləsi”-25

# Səngəçal terminalı

## Regionun neft-qaz ixracı mərkəzi Bakıdan 55 kilometr cənubda yerləşir



*Əvvəli 1-ci səh.*

İndi cəsarətlə demək olar ki, bu, neft-qaz sənayemizin, ümumiyyətlə, Azərbaycanın tarixində əlamətdar bir gün idi.

Doğrusu, o zaman təsəvvürə gətirmək belə çətin idi ki, cəmi bir neçə ildən sonra bu küləkli-çovğunlu, palçıqlı-qumlu ərazi dünyanın ən böyük terminallarından birinin ünvanına çevriləcək.

Həmin gün hamının gözü qarşısında Səngəçalda torpağa basdırılan “Zaman kapsulu”nda gələcək nəsillərə ünvanlanmış, inam və qətiyyət dolu bu sözlər yazılmışdı: “İndi başladığımız bu layihə Azərbaycanın Şərq-Qərb dəhlizində aparıcı rolunun təsdiqlənməsinə əsas verəcək, onun beynəlxalq nüfuzunu gücləndirəcəkdir... Biz ümidvarıq ki, üç ildən sonra Səngəçal neftin və qazın nəqli üzrə bir neçə nəhəng boru kəmərini birləşdirən, enerji daşıyıcılarının nəqli sisteminin dünya miqyaslı regional mərkəzi və Xəzərlə dünya bazarı arasında körpü olan bir obyektə çevriləcək”.

Hazırkı möhtəşəm terminal 17-18 il əvvəl İNL terminalının yaxınlığında ucalmağa başladı. 2002-ci ilin iyul ayında terminalın genişləndirilməsi layihəsinin bir hissəsi olan İlkin Mülki Tikinti İşləri tamamlandı. Sonra əsas tikinti işlərinə start verildi. BTC-nin tikintisinə və “Şahdəniz” yatağının işlənməsi layihələrinə qərar veriləndən sonra obyektdə aparılan böyükmiyqaslı işlər Səngəçal Terminalının Genişləndirilməsi Proqramı (STGP) adını aldı.

“Azəri” yatağından ilkin neftin qəbulu üçün lazım olan işlərin yarısı 2003-cü ilin ortalarına qədər artıq görülmüşdü. Sahədə işlər getdikcə şaxələnirdi. AÇG-nin birinci fazası (“Mərkəzi Azəri”) və ikinci fazası (“Qərbi Azəri” və “Şərqi Azəri”) üçün qurğular tikilirdi.

BTC-nin baş nasos stansiyasında, neft borularının çəkilişində, digər tikinti sahələrində işlər davam edirdi. 2003-cü ilin oktyabrında “Şahdəniz “ hissəsinin də inşasına başlandı.

2005-ci ilin sonlarında “Şahdəniz” qazı üçün iri texnoloji emal obyektinin inşası sona yaxınlaşmaqda idi. “Şahdəniz” qurğularının bir hissəsini də kompressor stansiyasının tikintisi təşkil edirdi. Qazın Azərbaycana, Gürcüstana və Türkiyəyə ötürülməsi üçün istifadə ediləcək bu stansiya CQBK layihəsinin tərkib hissəsi idi. Obyektlər 2006-cı ilin ortalarında hazır olmaq üçün qrafikə uyğun inşa edilirdi.

2007-ci il terminalın genişləndirilməsinin axırıncı ili idi. Mayın sonunda “Dərinsulu Günəşli” hissəsinin tikinti işlərinin mexaniki başa çatmasına nail olundu. Oktyabrda burada 5-ci və 6-cı texnoloji xətlər istismara verildi. Bununla da STGP uğurla sona çatdı.

STGP-ni podratçı olaraq “Azfen-Tekfen” Azərbaycan-Türkiyə alyansı həyata keçirdi. Bu hüququ alyans yüksək rəqabətli tenderdə qalib gələrək qazanmışdı. Səngəçalda yalnız BTC-nin baş nasos stansiyasını “Spi Kapaq-Petrofak” (Fransa-ABŞ) birgə müəssisəsi tikib. Bunlardan əlavə, terminalın araya-ərsəyə gəlməsində neçə-neçə yerli subpodratçı şirkət, təchizat və xidmət müəssisəsi iştirak edib.

Terminalı beynəlmiləl işçi qrupu tikib. Bununla belə, onun inşaatçılarının 70-80 faizini Azərbaycan vətəndaşları təşkil edirdi. Bunlar əsasən Bakının Qaradağ rayonunun terminalətrafı yaşayış məntəqələrinin, o cümlədən qaçqın və məcburi köçkünlər üçün salınmış “Ümid” qəsəbəsinin sakinləri idi.

Tikintinin ən qızğın çağında işlərin həcmindən asılı olaraq burada 3500-4000, bəzən daha çox insan çalışırdı. İşə götürülən vətəndaşlar əvvəlcədən peşə təlimi keçir, layihənin əməliyyatçısı olan BP-nin SƏTƏMM (Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Ətraf Mühitin Mühafizəsi) qaydalarını əxz edirdi.

Hazırda Səngəçal terminalı AÇG-nin neftini texnoloji emal edən avadanlıqları, BTC-nin baş nasos stansiyasını, CQBK-nın və kəmərin genişləndirilmiş sistemini, “Şahdəniz” qurğularını özündə birləşdirən nəhəng bir obyektdir. Bir neçə ixrac kəmərinin öz başlanğıcını məhz Səngəçaldan götürməsi buradakı terminalın dünyanın ən böyük terminallarından biri olduğunu bir daha təsdiqləyir.

Ötən illər ərzində Səngəçal terminalı xalqımızın tarixində özünə mühüm yer tutan bir çox hadisələrin, əlamətdar günlərin şahidi olub.

2002-ci il sentyabrın 18-də burada üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan BTC-nin təməli qoyuldu. Ulu Öndər Heydər Əliyev təməlqoyma mərasimində həmişə olduğu kimi, dərin məzmunlu nitq söylədi, nikbinliklə “Bakı-Tbilisi-Ceyhan irəliyə gedəcək, gedəcək, gedəcəkdir!” dedi.

Zaman Ulu Öndərin uzaqgörənliklə dediklərini sübuta yetirdi. 2005-ci ilin fevral ayında “Azəri” yatağının mərkəzi hissəsindən neft hasil olundu. Sualtı kəmərlər bu nefti mart ayında Səngəçala çatdırdı. Mayın 25-də isə terminalda böyük təntənə oldu. BTC-yə ilk neftin vurulmasında Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Gürcüstanın, Türkiyənin və Qazaxıstanın dövlət başçıları da iştirak etdilər.

Həmin tədbirdə Prezident İlham Əliyev demişdir: “Bütün bu işləri görmək üçün, əlbəttə ki, möhkəm iradə lazım idi, müdriklik lazım idi. İqtisadi və siyasi islahatlar aparmaq lazım idi. Amma onu da bilirik ki, həlledici rolu neft amili, “Əsrin müqaviləsi”nin imzalanması oynamışdır. Həmin müqavilə, ondan sonrakı dövr ərzində görülən işlər Azərbaycanın inkişafına böyük təkan vermişdir və biz bunu bu gün də hiss edirik”.

STGP çərçivəsində Qaradağ rayonunda geniş sosial sərmayə proqramı da həyata keçirildi. BP-nin tərəfdaş şirkətlərlə birlikdə həyata keçirdiyi bu qəbildən olan tədbirlərdən bir neçəsinin adını çəkmək kifayətdir. Məsələn, Lökbatanda doğum evi yenidən quruldu. Səngəçaldakı 222 nömrəli orta məktəbdə yeni idman kompleksi inşa edildi. “Ümid” qəsəbəsində İcma İnkişafı Mərkəzi (onu qəsəbədə “Xeyir-şər evi” də adlandırırlar) istifadəyə verildi. Daha bir layihənin icrası “Ümid”, eləcə də Səngəçal əhalisi üçün kanalizasiya sisteminin modernləşdirilməsini mümkün etdi və s.

Səngəçalda aparılan inşaat işləri böyük miqyaslı olduğundan əvvəlcədən ƏMSSTQ (Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi) sənədləri hazırlanmışdı. Belə ki, tikinti işləri zamanı bir sıra yerli və qlobal əhəmiyyətli canlı növləri təsirə məruz qala bilərdi. “Qırmızı Kitab”a düşmüş Aralıq dənizi tısbağaları xüsusilə həssas idi. Ona görə də bu canlılar qış yuxusunda ikən ayrı-ayrı qutulara yığıldı. Nəticədə terminalın ərazisində qeyri-adi bir ferma - Tısbağa ferması yaradıldı. Beləliklə, bu canlılar təhlükədən qorundu, böyüdü, artdı. Fürsətdən istifadə edərək tısbağalara alimlər, mütəxəssislər baş çəkdilər. Onları müşahidə edərək əlavə bilgilər qazandılar. Məktəblilər ekskursiyalara gələrək maraq dünyalarını zənginləşdirdilər.

Həmin vaxtdan Səngəçal terminalı xeyli genişlənib. Son illərdə bu obyekt “Şahdəniz-2” qazını qəbul etmək və ötürmək üçün tikilmiş bir çox yeni qurğular sayəsində daha da böyüyüb.

2014-cü il sentyabrın 20-də burada “Cənub qaz dəhlizi”nin təməli qoyulub. 2018-ci il mayın 29-da terminal bu nəhəng layihənin rəsmi açılış mərasiminə evsahibliyi edib.

Azərbaycan neftinin və qazının Səngəçaldan başlanan yolları yeni-yeni ünvanlaradək uzanır. Mübaliğəsiz demək olar ki, bu möhtəşəm terminal Azərbaycanın yüksək zirvəyə çatmış iqtisadiyyatının rəmzlərindən birinə çevrilib.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Mütərəqqi nümunə

*Əvvəli 1-ci səh.*

Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması, Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin, Apelyasiya Şurasının və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin fəaliyyəti ölkə iqtisadiyyatının, eləcə də sahibkarlığın inkişafında mühüm rol oynayır. Yoxlamaların dayandırılması isə sahibkarlığın inkişafında kifayət qədər müsbət radikal dəyişikliklərə yol açıb. Bu, dövlət qurumları ilə sahibkarlar arasında ünsiyyətin minimumlaşdırılmasına və yersiz müdaxilələrin tamam aradan qaldırılmasına müsbət təsir göstərib.

Məhz bunun nəticəsidir ki, ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi ildən-ilə artır. Təkcə bu ilin 6 ayında ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub ki, bunun da böyük hissəsi qeyri-neft sektorunun payına düşür.

Son 6 ayda özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində sistemli tədbirlər davam etdirilib. Bu müddətdə sahibkarlara 1130 lisenziya verilib ki, bunun da 568-i yeni, 562-si isə müddətsiz lisenziyalarla əvəzetmə təşkil edir. Ümumilikdə isə İqtisadiyyat Nazirliyi tərəfindən “ASAN xidmət” mərkəzləri vasitəsilə 2 noyabr 2015-ci il tarixindən 1 iyul 2019-cu il tarixinədək sahibkarlara 7900-dan çox lisenziya verilib. Ötən ilin martında yaradılan “Lisenziyalar və icazələr” portalı vasitəsilə artıq 1100-dən çox elektron lisenziya verilib, 449 milyon manatdan çox olan layihələr üzrə 50 investisiya təşviqi sənədi təqdim edilib. Layihələrin 58 faizi sənaye, 34 faizi kənd təsərrüfatı, 8 faizi isə turizm sahələrini əhatə edir.

Özəl sektorun uzunmüddətli və əlverişli şərtlərlə maliyyə resurslarına çıxışının təmin olunması üçün bu ilin birinci yarımilliyində sahibkarlığın güzəştli kreditləşdirilməsi davam etdirilib. 6 ayda İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarların maarifləndirilməsi, nümunəvi investisiya layihələrinin təqdim olunması, güzəştli kreditlərin verilməsi ilə bağlı 1500 sahibkarın iştirakı ilə 12 işgüzar forum keçirilib, müvəkkil kredit təşkilatları vasitəsilə ümumi dəyəri 178 milyon manat olan 510 investisiya layihəsinin maliyyələşdirilməsinə 50 milyon manatadək güzəştli kredit verilib. Güzəştli kreditlərin 68 faizi aqrar sektorun, 32 faizi sənaye istehsalı və emalının, eləcə də 44 faizi regionların, 56 faizi isə Bakı qəsəbələrinin payına düşür.

Bu ilin 6 ayının digər makroiqtisadi göstəriciləri onu deməyə əsas verir ki, 2019-cu il Azərbaycanın iqtisadi inkişafında mühüm dövr olacaq.

İstənilən ölkədə iqtisadi azadlıq mövcuddursa, dövlət xarici güc və amillərdən asılı olmayaraq xalqın layiqli yaşayışını təmin edə bilir, maddi və mənəvi ehtiyatlarını qorumağa qadir olur. Məhz ölkənin iqtisadi azadlığı şəraitində azad iqtisadiyyat, yəni fəaliyyəti kənar qüvvələrin təsirinə məruz qalmayan sağlam və sərbəst rəqabətə əsaslanan iqtisadiyyat mümkündür. Bu gün Azərbaycanın da adı həmin ölkələr sırasında çəkilir.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

Möcüzələr diyarı

# Palçıq vulkana çevriləndə...

## Azərbaycan bu təbiət hadisəsinə görə dünyada ilk sıralardadır

Ötən əsrin 20-ci illərində görkəmli tədqiqatçı, professor D.V.Qolubyatnikov palçıq vulkanını pulsuz kəşfiyyat “quyusu” adlandırmışdır. Qeyd etmişdir ki, bu cür “quyuların” dərinliyi hərdən 10-12 km və daha çox olur.

### XIX əsrdən tədqiqatına başlanıldı

Palçıq vulkanları adətən neftli-qazlı sahələrlə üst-üstə düşür. Məhz bu fakta əsaslanaraq palçıq vulkanlarının neft-qaz yataqları ilə mənşəcə yaxın olması müddəası irəli sürülür.

Bu təbii fenomenin öyrənilməsinə 1861-ci ildə başlanılıb. Səbəb isə Cənubi Xəzərdə Kumani (Çınqıl dəniz) bankasındakı möhtəşəm püskürmə olub. Get-gedə isə palçıq vulkanlarına olan maraq daha da artıb və bir sıra fundamental işlər görülüb.

Palçıq vulkanlarının elmi tədqiqatı Qafqazın böyük bilicisi, Sankt-Peterburq Elmlər Akademiyasının həqiqi üzvü G.V.Abixinin adı ilə bağlıdır. Abixin belə bir nəticəyə gəlmişdi ki, palçıq vulkanları səthə çıxmaq üçün lazım olan istilik enerjisini maqmadan, brekçiya əmələ gətirən qırıntı süxurlarını yarılma (qırılma) zonasından, suyu dənizdən, qazı bitumlu süxurlardan, palçıq vulkanlarının fəaliyyətinin başlanması üçün lazım olan impulsları isə zəlzələlərdən alır.

Digər geoloq alimlər palçıq vulkanlarının əsas yaranma səbəbini geodinamikada - qırışlar, boşluqlar və çatların yaranması və inkişafı ilə əlaqələndirirlər. Neftçi geoloqların fikrincə isə, palçıq vulkanları neft yataqlarında toplanmış karbohidrogen qazlarının ifrat təzyiqi nəticəsində yaranır. Palçıq vulkanları ətraf sahədən 400-500 metrədək yüksələn, əsasının diametri 100-dən 350 metrədək olan kəsik konus formalıdırlar.

### 2500 palçıq vulkanının 353-ü Azərbaycandadır

Dünyanın 42 ölkəsində ümumi sayı 2500-ə çatan palçıq vulkanlarının 353-ü Azərbaycandadır. Azərbaycan planetimizdə palçıq vulkanizminin inkişaf etdiyi unikal və klassik ölkədir. Burada öz müxtəliflikləri və ölçüləri ilə fərqlənən, hər növ təzahürlü palçıq vulkanlarına (aktiv fəaliyyət göstərən, sönmüş, gömülmüş, sualtı, ada, bol neft ifraz edən) rast gəlinir. Morfoloji müxtəlifliyi, fəaliyyət aktivliyi və sayına görə dünyanın heç bir ölkəsində Azərbaycandakı qədər palçıq vulkanı yoxdur. Ölkəmiz palçıq vulkanlarının vətəni sayılır.

Azərbaycandakı palçıq vulkanları haqqında məlumatlara ölkəmizə gələn ayrı-ayrı səyahətçilərin gündəliklərində və qeydlərində rast gəlmək olar. Ərəb səyahətçiləri Əbu-əl-Həsən Əli Məsudi (IX əsrin axırı-956/957), Əbu Həmid Qarnatinin (1080-1170) yol qeydlərində Azərbaycanda palçıq vulkanlarının püskürməsi haqqında məlumatlar var. Şəmsəddin Diməşqi (1256-1327) qeydlərində bildirib ki, Xəzər dənizində bir ada var, oradakı böyük vulkandan alov çıxır, o, böyük hündür şama bənzəyir. Bu alov qurudan çoxlu fərsəq məsafəsində yerləşir.

Abşeron yarımadasının Gil adası, Xarə-Zirə (Bulla) adası, Yanan-Tava, Bozdağ-Qobu, Lökbatan, Keyrəki kimi dəniz və qurudakı vulkanları haqqında ilk məlumatlar 1810-1830-cu illərdə nəşr olunub.

Azərbaycanda palçıq vulkanına verilmiş yerli “pilpilə” adı geniş yayılmışdır. Səsi təqlid edən “pilpilə” (lilli kütlədə qaz qabarcıqlarının fırçıltısını əks etdirən) adından başqa, burada “palçıq gölü”, “bozdağ”, “ağtirmə” kimi adlar da palçıq vulkanlarına qoyulan milli adlar sırasındadır.

### İndiyədək 457 püskürmə hadisəsi qeydə alınıb

Azərbaycanda palçıq vulkanları ən çox Abşeron yarımadası, Şamaxı-Qobustan, Aşağı Küryan çökəkliyi, Bakı arxipelaqı və Gürcüstan sərhədləri ərazisində yayılıb.

AMEA-nın Geologiya və Geofizika İnstitutunun Palçıq vulkanizmi şöbəsinin rəhbəri, geologiya-mineralogiya elmləri doktoru, professor Adil Əliyev deyir ki, Cənubi Xəzər hövzəsi unikal hövzə olduğundan burda çoxlu vulkan var. Burda çöküntü qatının qalınlığı 30 km-dən artıqdır. Heç bir ərazidə bu qalınlıqda çöküntü qatı yoxdur. Vulkanların əmələ gəlməsi çöküntü qatı ilə əlaqədardır. Abşeron yarımadasında, Şamaxı-Qobustan, cənub-şərqi Şirvan rayonlarında və Bakı arxipelaqında yerləşən vulkanların 100-dən artığı Qobustandadır.

40 vulkan yer səthinə çoxlu neft çıxarır. Qeyd edilən palçıq vulkanlarının 154-ü isə dəniz vulkanıdır. Palçıq vulkanlarının dəniz şəraitində fəaliyyəti nəticəsində adalar, saylar, dayazlıqlar və sualtı dağ sıraları yaranır. Cənubi Xəzərin Bakı arxipelaqında palçıq vulkanı mənşəli 9 ada (Zənbil, Gil, Xarə-Zirə, Qarasu, Səngi-Muğan və b.) və çoxsaylı sualtı saylar mövcuddur.

Azərbaycanda ilk dəfə 1810-cu ildə Xəzər dənizində Gil və Xarə-Zirə adalarında püskürmə hadisələri baş verdiyini xatırladan Adil Əliyev bildirir ki, Şərqi Azərbaycanda 1810-cu ildən bugünə qədər 93 vulkanda 457 püskürmə hadisəsi qeydə alınıb. Bu, aktivlik sayılır. Demək olar ki, hər il 3-5 vulkan püskürməsi qeydə alınır. Lökbatan, Şıxzərli, Keyrəki, Quşçu və Xarə-Zirə (Bulla) vulkanları daha çox fəaldır: “Palçıq vulkanlarının adətən yaşayış məntəqələrindən uzaqda yerləşməsi, püskürmələrin qəflətən və qısamüddətli baş verməsi onları heç də həmişə müşahidə etməyə imkan vermir. Püskürmələr haqqında müəyyən məlumatları ancaq şahidlərin (yaxınlıqdakı yaşayış məntəqələri sakinlərinin, çobanların, dənizçilərin, mayak nəzarətçilərinin və s.) söylədiklərinə əsasən əldə etmək mümkün olur”.

### Yatmış vulkanı oyatmaq olmaz

Adil Əliyev deyir ki, vulkan püskürmələrinə bir çox amillər səbəb olur. Bəzən isə insan amili “süni püskürmə”lər yaradır. Məsələn, 2000-ci ildə Ceyranbatan su anbarının sahilində yerləşən Keçəldağ vulkanının kraterinə yaxın hissədə boru xətti çəkilərkən püskürmə baş verib. Ona görə də yatmış vulkanı oyatmaq olmaz: “Abşeron yarımadasında Keyrəki, Bozdağ-Qobu vulkanlarının yaxınlığında evlər tikilib. 1999-cu ildə Bozdağ-Qobu vulkanında güclü püskürmə baş vermişdi. Vulkanın ərazisində 1100 metr uzunluğunda çat əmələ gəlmişdi. O vaxt orda yaşayan əhalini köçürdülər. İndi Hökməli kəndində böyük yaşayış massivi salınıb. Son illər Bakı və Abşeron yarımadasında yerləşən palçıq vulkanlarına antropogen təsirlərin artması nəticəsində onların əraziləri dağıdılır, intensiv inşaat işləri aparılır, vulkanların püskürmə ehtimalı olan zonalarında yaşayış binaları inşa olunur, vulkanın yamacını kəsib yarısını aparırlar. Bu səbəbdən ölkə ərazisində mövcud olan palçıq vulkanlarının mühafizəsini təşkil etmək mütləqdir”.

A.Əliyevin sözlərinə görə, 2002-ci ildə palçıq vulkanları “təbii abidə” statusu alıb. 2007-ci ildə dövlət qoruğu yaradılıb, lakin insanlar yenə də bu ərazilərə müdaxilə edirlər. Ələt yaxınlığında yerləşən “Bahar” vulkanı 1992-ci ildə sonuncu dəfə püskürüb. İndi vulkanın fəaliyyəti zəifləyib və yamac hissəsini tikinti üçün qazıb aparırlar. Bunlar da həmin vulkanın yenidən püskürməsinə səbəb ola bilər.

Yeraltı təkanın püskürmənin “təhrikçisi” rolunu oynadığını deyən Adil Əliyevin sözlərinə görə, zəlzələlərin aktivləşməsi palçıq vulkanları püskürmələrinin fəallaşmasına səbəbdir: “Müşahidələrin nəticələri göstərir ki, vulkanın fəaliyyəti zəlzələlərin axırıncı “hazırlıq” mərhələsi dövründə daha aktiv olur, 2-3 həftə sonra bu vulkana yaxın ərazidə zəlzələ baş verir. Maqnitudası 4-10 arası olan zəlzələlər vulkanın püskürməsinə təkan olur. Yeni minillikdə Xəzərdə baş vermiş 6-7 ballı güclü zəlzələdən sonra 16 püskürmə özünü göstərdi. Belə misallar çoxdur”.

Palçıq vulkanlarının qorunmasının vacibliyini xüsusi vurğulayan Adil Əliyevin fikrincə, indi palçıq vulkanlarının əksəriyyətinin yamacı zibilxanaya çevrilib. Belə hallar təkcə bu təbiət abidələrinin məhvinə səbəb olmur, müəyyən dərəcədə antisanitariya, həm də ətraf mühit üçün təhlükə törədir.

### Palçıq müalicəxanası

Palçıq vulkanları gözəl ekoturizm obyekti kimi də istifadə edilə bilər. Yəni Bakıya çoxlu turistlər də cəlb etmək olar.

Vulkan palçığının tərkibində bor, manqan, litium, vanadium, mis və s. kimi çoxlu qiymətli mikroelementlər var, vulkan suları isə üzvi maddələr, bor, brom və yodla zəngindir. Vulkan gilindən sement, keramzit, kərpic istehsal etmək, metallurgiya kürəsi düzəltmək üçün qiymətli xammal kimi istifadə etmək olar. Ondan tikintidə geniş istifadə olunur. Püskürmə məhsulu olan vulkan brekçiyasının tərkibində xalq təsərrüfatının ehtiyaclarını qarşılaya bilən bir sıra qiymətli kimyəvi elementlər, metallar da var.

Həmsöhbətimiz deyir ki, vulkan palçığı insan orqanizminə yaxşı təsir göstərməklə müalicəvi xassələrə malikdir: “Əsasən lilli, torflu və sapropelli palçıqlardan alınan preparatlardan müalicə məqsədi ilə dünyada infeksiya, vanna, yuyub dezinfeksiya etmə formasında geniş istifadə olunur. Vulkan palçığından dayaq-hərəkət aparatı, oynaqlar, onurğa, periferik əsəb sistemi, dəri, mədə-bağırsaq traktatı, şəkər diabeti, ateroskleroz və boyun osteoxondrozu kimi xəstəliklərin müalicəsində, daha sonra ginekologiyada, urologiya və kosmetologiyada uğurla istifadə edilir. Azərbaycanda hələ keçən əsrin 80-ci illərində Bakı şəhərinin 15 tibb müəssisəsində həkimlər ilə birlikdə vulkan palçığının müalicəvi praktikası həyata keçirilirdi. Bundan başqa, Azərbaycanın bir sıra rayonlarında yerli əhali palçıq müalicəsinin “misir” metodundan istifadə etməklə öz təşəbbüsü ilə bilavasitə vulkanların özündə palçıq vannası qəbul edir. Vulkanın palçığını götürüb qabda saxlayırsan, durulur, üzündə şəffaf su əmələ gəlir və boğaz ağrısı zamanı onunla qarqara edilir”.

### Püskürməsi ehtimal edilən vulkanlar

Ölkə ərazisindəki aktiv vulkanları sadalayan Adil Əliyev deyir ki, Keyrəki, Lökbatan, Quşxana, Şıxzərli, Torağay vulkanları daha aktivdir ki, bunların püskürmələrinin sayı 20-dən çoxdur. Abşeron yarımadasındakı Lökbatan vulkanı 200 il ərzində 25 dəfə püskürüb. Növbəti dəfə Bozdağ-Qobu, Mərəzə, Keyrəki, Şəkixan, Ayazaxtarma, Mərkəzi Qobustanda Şıxzərli, Nardaranaxtarma vulkanlarının püskürməsi ehtimal edilir.

Vulkanın fəaliyyətinin zəifləməsi onun püskürməsi haqqında məlumat verir. Elə vulkan var ki, püskürmədən sonra krater sahəsində qrifonlar, sopkalar əmələ gəlir və vulkan daim ordan suyu, qazı, palçığı çıxararaq tərkibində olan enerjini boşaldır. Ancaq bəzi vulkanlarda püskürməsonrası bu aktivlik müşahidə edilmir və enerji toplanır, bir müddət sonra həmin vulkanda yenidən püskürmə baş verir.

Abşeronda “Üçtəpə”, Qobustanda “Mədrəsə”, “Qırqışlaq” vulkanları neft çıxaran vulkanlar sırasındadır. Bunlar yer səthinə bol neft çıxarır. Gec püskürən vulkanlardır.

Dünyanın möcüzələrindən biri sayılan palçıq vulkanlarının qorunması və gələcək nəsillərə çatdırılması, respublikamızın təbii irsinin geniş miqyasda təbliğ olunması işinin əhəmiyyətini hər birimiz dərk edib, bu işə öz töhfəmizi verməliyik.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***







# Mədəniyyət





● Bura Vətəndir...





# Bu, Naxçıvandır-nəqşi-cahandır

## Maddi-mənəvi, təbii sərvətlər və möcüzələr diyarının iqtisadi, ictimai, mədəni yüksəlişi, firavan həyatı qurub-yaratmaq əzmi ilə çalışanların əməyinin bəhrəsidir

**Qoca Şərqin yaxasında ucalıqlar məskəni, müdriklər oylağı, ulular məkanıdır Naxçıvan. Bəşər ilkinliyinin müqəddəslik simvolu, möhtəşəmlik diyarıdır bu torpaq. Köz rəngində, alov biçimində olan və bir-birinə sığınan uca dağlarla əhatələnən, həsrət, qubar timsallı Xan Arazın sahilinə söykənən bu Oğuz-Türk yurdunun yaşı qədimdən də qədimdir.**

Məxəzlərdə bu tarix 5000 ildən yuxarı göstərilir. Lakin qoynunda tarixin sərt amansızlıqlarından hifz etdiyi izlər, nişanələr, saxlanclar bəşər ilkinliyindən soraq verir. Adının Nuhçıxan, Nuh varan yer, torpaq anlamında bu diyarın qədimliyinə dəlalət edir.

Şərqə açılan qapı kimi karvan yolu üzərində qərar tutan Naxçıvanın mədəniyyətlər qovuşağında inkişafının, tərəqqisinin təntənəsi antik səyyahların dilində, salnaməçilərin qələmində vəsf edilib. Nəqşicahan - dünyanın naxışı, bəzəyi, yaraşığı kimi tərənnüm olunub.

### Ta qədimdən bu yurdda söz daşa yazılıb, daş sözə...

kəlama çevrilib. Gəmiqayada qayaüstü rəsmlərdən ulu əcdadlarımızın hikməti süzülür. Memar Əbubəkir oğlu Əcəmi Naxçıvaninin zəkasının, sirli, ovsunlu əllərinin yaratdığı incilərdən dürlü-dürlü kəlamlar dil açır.

Naxçıvanda təbiətin də özünəməxsus ecazkarlığı, füsunkarlığı var.

Bu diyarda hər ucalıqda bir möhtəşəmlik, hər qaya, hər daşda bir vüqar, əzəmət boy verir. Qapıcıq zirvəsi ənginliyin sədası, hər tərəfdən görünən Haçadağ isə əzəmət nidasıdır. Haqqında "Qurani-Kərim"də danışılan Əshabi-Kəhf mağarası sirr-ovsun soraqlı müqəddəslik nişanəsidir. Əmir Teymur qəzəbinə 14 il sipər olan Əlincə qalası əyilməzlik möhürüdür.

Sərt, sıldırım qayalarla əhatələnən bu strateji məkan zaman-zaman Naxçıvan hakimlərinin iqamət yeri olmuş, Eldəgizlər səltənəti dövründə xüsusi əhəmiyyət kəsb etmiş və xəzinəsinin saxlanc yeri də bu məkan seçilmişdir.




Bu əzəmət simvolunun digər tarixi abidələrə qayğı fonunda bərpa edilib abadlığa qovuşması, eləcə də Əshabi-Kəhf ziyarətgahında görülən işlər, Nuh Peyğəmbərin məzarüstü türbəsi, Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksinin ərazisində yaradılan möhtəşəmlik təqdirəlayiq quruculuq tədbirləri sırasında çox dəyərlidir.

Altı maddi sərvətlərlə zəngin, üstü ruzi-bərəkət mənbəyi olan Naxçıvan torpağına uca yaradan da çox səxavət göstərib: ona şöhrət gətirən çeşid-çeşid nemətlər bəxş edib. Bunlardan biri də hələ qədim zamanlardan emal edilən, nəinki Yaxın Şərqdə, onun hüdudlarından çox-çox uzaqlara aparılan Naxçıvan duzudur. Əsrlərdir şöhrəti aləmlər dolaşan bu sərvət təkcə qida məhsulu kimi deyil, onun bitib-tükənməyən yataqları şəfaverici xüsusiyyətinə görə də məşhurdur. Bu gün Duzdağda yaradılan şərait, sözün gerçək anlamında təqdirolunasıdır. Dünyada tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən, şəfa diləyənləri doğma diyara cəlb edir.

Bu torpaqda çağlayan mineral su mənbələri də özünəməxsusluğu, zəngin tərkibi ilə seçilir. Bu gün də "Sirab", "Badamlı", "Vayxır" və sair adlarla süfrələr bəzəyinə çevrilən həmin mineral sular, şəfaverici xüsusiyyətləri ilə də məşhurdurlar. Eləcə də bu torpağın yetirdiyi çeşid-çeşid nemətlər, ekoloji baxımdan saf məhsullar dadı-tamı ilə seçilir, dillər əzbərinə çevrilir.

Naxçıvan torpağı bərəkət rəmzi, ruzi mənbəyidir. Onun dağında-daşında bitən gülü, çiçəyi belə can dərmanı, şəfa məlhəmidir. Yamyaşıl tarlaları, çörək ətirli zəmiləri bərəkət çətiridir. Burada torpağın nazını çəkən, ona alın təri qatan zəhmətkeş yurdsevər insanların əməyi sayəsində bol məhsulu bitib-tükənmir. Bu səbəbdəndir ki, muxtar respublika iqtisadiyyatının sürətli inkişafı dinamik xarakter alıb. Yerli xammal hesabına yeni-yeni emal müəssisələrinin, istehsal sahələrinin yaradılması əhalinin ərzaq təminatını yaxşılaşdırmaqla yanaşı, məşğulluğun təmin edilməsinə, yaşayış səviyyəsinin yüksəlməsinə stimul verir.

Bu qədim diyar, eyni zamanda elm, sənət, mədəniyyət beşiyi kimi də möhtəşəmdir. Bəşər tarixinə böyük mütəfəkkirlər, dahi şəxsiyyətlər, müdrik dühalar bəxş edib.

### Memar Əcəminin möcüzəli əlləri, yadigar inciləri

Bu incilər yurdun sənət simvollarıdır. Sufi şairi İmadəddin Nəsiminin "Aləmin həqqi" adlandırdığı insanı yaradılmışların ən alisi, ən kamili hesab edən, hürufilik cərəyanının banisi F.Nəimi də bu ulu yurdun övladı, yetirməsidir. Bəşəri ideyalar carçısı, şair Hüseyn Cavid ucalığı dünyaya bu yurd yerindən boy göstərib. Böyük yazıçı Mirzə Cəlil bu torpaqda dünyaya göz açıb. Parlaq, nurlu ideyaları ilə insanlığı qəflətdən oyanmağa səsləyib. Əlvan rəng çalarları ilə möcüzəli sənət nümunələri yaradan Bəhruz Kəngərlinin də vətənidir Naxçıvan. Və beləcə bu qocaman diyar onlarla, yüzlərlə elm, sənət korifeyi, böyük dühalar, sərkərdələr, dünya şöhrətli dahi şəxsiyyətlər yetirib cahana. Naxçıvanın müqəddəslik əlaməti həm də ondadır ki, əvəzsiz dahi şəxsiyyət, dünya şöhrətli siyasətçi kimi tarixə yazılan Ümummilli Lider Heydər Əliyev də bu yurdun övladıdır.

Bəli, sirr deyil ki, bugünkü Naxçıvanın möhtəşəmliyi məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu möhtəşəmlik onun pak məfkurə işığında yurda, torpağa sevgi, vətənə məhəbbət, xalqa xidmət amalları aşılayan ideyalarının, qurub-yaratmaq siyasətinin nəticəsidir. Bu gün Naxçıvanın sözün həqiqi mənasında adını, tarixi şöhrətini - Cahanın naxışı, dünyanın bəzəyi olduğunu ehtiva edir. Bütün sahələrdə dinamik xarakter alan iqtisadi inkişaf, sosial-mədəni tərəqqi, mənəvi yüksəliş yurdun hər qarışında parlaq naxışlarla üzə gülür. Çəkilən rahat, abad yollar, ətrafının yaşıllıqlara qərq olan ormanlığı gül-çiçəyə bürünən görkəmi bu diyarda insanların qəlbinin yurda, vətənə sevgi amalları ilə çağladığından soraq verir.

Muxtar respublikanın bütün yaşayış məntəqələri, o cümlədən ən ucqar kəndləri belə müasir tələblər səviyyəsində abadlaşıb...

### Görkəmi ilə gözəlliyə qovuşan diyar

Bu sırada Naxçıvan şəhəri xüsusilə qeyd olunmalıdır. Burada müasir arxitektura üsulunda inşa olunan yeni binalar, orijinal memarlıq quruluşuna malik tikililər, eləcə də tarixi abidələrin mənsub olduqları dövrün memarlıq ənənələrinə uyğun bərpası, mövcud binaların gözoxşayan şəkildə təmiri, aparılan abadlıq işləri onun hüsnünə ecazkarlıq gətirib, əsrarəngiz görkəm bəxş edib.

Yurda, torpağa sevgi aşılayan, doğma diyarı gözəlliklər - cənnət-məkana çevirən təqdirəlayiq işlər burada yaşayan insanların yaşayış səviyyəsinin, rifahının yüksəlməsinə xidmət etməklə yanaşı, mədəni-mənəvi tərəqqinin də göstəricisi kimi dəyərlidir. Təbii ki, bütün bunlar, həmçinin Naxçıvanı dünyanın diqqət mərkəzinə çevirir, regiona turist axınının artmasına da stimul verir. Bu mənada tarixi məkanlara, memarlıq abidələrinə diqqət və qayğı, o cümlədən Əlincə qalası ərazisində, Naxçıvanqala Tarix Memarlıq Muzey Kompleksində, xüsusən də Nuh Peyğəmbərin məzarüstü türbəsinin bərpası, habelə Əshabi-Kəhf ziyarətgahında, Əcəmi Seyrəngahında, Qarabağlar Türbə Kompleksində görülən təmir-bərpa, abadlıq işlərinin mahiyyəti, onların tariximizdə, günümzdə kəsb etdikləri önəm böyük əhəmiyyət daşıyır.

Muxtar respublikada digər sahələr kimi, elmin, təhsilin, mədəniyyətin inkişafı istiqamətində həyata keçirilən layihələr də öz bəhrəsini verir. Bu gün Naxçıvan həm də elm, təhsil, mədəniyyət mərkəzinə çevrilib. Burada fəaliyyət göstərən 3 böyük ali təhsil ocağı, eləcə də çoxsaylı orta ixtisas təhsili müəssisələri bütün sahələr üzrə təkcə region üçün deyil, geniş coğrafiyada mütəxəssislər yetişdirmək funksiyasını uğurla yerinə yetirir. Təbii ki, burada AMEA Naxçıvan Bölməsinin fəaliyyətinin də iqtisadiyyatın, elmin, mədəniyyətin inkişafında rolu müstəsna amil kimi qeyd olunmalıdır. Bunun nəticəsidir ki, Naxçıvan bu gün beynəlxalq əhəmiyyətli mötəbər tədbirlərə - elmi konfranslara, simpoziumlara, festivallara, sərgilərə, müxtəlif yarışlara evsahibliyi edir.

Ötən il Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olması, burada Avropa günlərinin keçirilməsi, Türk Şurası Gənclər Forumunun gerçəkləşməsi, eləcə də onlarla birgə beynəlxalqmiqyaslı tədbirlər doğma diyarın dünyanın diqqət mərkəzində olmasının bariz nümunəsidir.

Qədim Naxçıvan bu gün yeni günlərini - inkişafın, tərəqqinin möhtəşəmliyini yaşayır. Adının etimoloji anlamını - Cahanın naxışı, bəzəyi olduğunu inikas etdirir.

...Bütün bunlar deməyə əsas verir ki, 20-ci yüzilliyin sonu, XXI əsrin ilk 10 illikləri tariximizdə inkişaf, tərəqqi, yüksəliş dövrü kimi səciyyələnir. Tariximizə qızıl hərflərlə yazılan bu dövrün iqtisadi, sosial inkişafı, yüksəlişi, insanların rifahı, yaşayış şəraiti, mədəni-mənəvi səviyyəsi, həmçinin onların yurd-vətən sevgisindən güc alan qurub-yaratmaq əzmini də əks etdirir.

*Adilə SƏFƏROVA,*
*Əməkdar mədəniyyət işçisi*

● Yeni tamaşa

# "Lənət" onu qazananlara nifrət aşılayır

## YUĞ Dövlət Teatrında bolqar rejissoru Xristo Stoyçevin quruluşunda hazırlanan tamaşanın qayəsi belədir: lənətə gələn də insandır, ona bais olan da

**Azərbaycan-Bolqarıstan münasibətlərinin tarixi çox qədimdir. Xalqlarımızın adət-ənənəsində, mətbəxində, hətta dekorativ-tətbiqi sənətdə istifadə etdiyi naxışlarda yaxınlıq, hətta eynilik belə kifayət qədərdir. Torpaqlarımızı min kilometrlər ayırırsa, aramızda bir oxşarlıq, bir doğmalıq kökdən gəlir...**



Bu tarixi əlaqələrin mədəniyyət, o cümlədən teatr sənəti vasitəsilə qorunub saxlanması da zərurətdən doğur. Tanınmış bolqar teatr rejissoru Xristo Stoyçevin yenidən Bakıda olması mədəniyyət, əslində, Azərbaycan teatr tarixinə yazılacaq qədər əhəmiyyət daşıyır. Bu səfər tanınmış rejissorun Yuğ Dövlət Teatrında V.Şekspirin "III Riçard" pyesi əsasında nifrətə layiq olanlardan bəhs edən "Lənət" adlı tamaşa qurması ilə bağlıdır.

Dövlət sifarişi ilə hazırlanan tamaşanın rejissoru Günay Səttar, bəstəkarı Əməkdar incəsənət xadimi Sərdar Fərəcov, quruluşçu rəssamı Olqa Boseva (Bolqarıstan), geyim rəssamı Elnarə Bəkirova olan "Lənət" iki heyətdə hazırlanır. Bəzi aktyorlar hər iki heyətdə rol alsa da, teatr iki fərqli quruluşda tamaşa qazanmış olacaq. Rolları əməkdar artistlər Sonaxanım Mikayılova, Qasım Nağı, aktyorlardan Oktay Mehdiyev, Natəvan Qeybani, Zümrüd Qasımova, Əmrah Hacıyev, Təranə Ocaqverdiyeva, Elgün Həmidov oynayır.

Xristo Stoyçev Bolqarıstanda çox tanınmış sənətkar ailəsində dünyaya göz açıb. Atası Stoyçe Stoyçev aktyor-rejissor, anası Blaqorodna Stoyçeva isə aktrisa olub. Yəni ailə bütünlüklə teatra, səhnə sənətinə bağlı olub. Hər iki valideynini itirən Xristo Stoyçevin uşaqlığı teatrda keçib, ona görə də bu sahəyə vurğuncasına bağlanıb. O, səhnəarxası bütün işlərdə çalışıb, orada baş verənlərin şahidi olub.

Sofiya Universitetində həm ali rejissor, həm də teatrşünas ixtisasına yiyələnən Xristo rus dilini yaxşı bilir. Azərbaycan dilinə sevgi ilə yanaşan rejissor elə ilk gündən bəzi sözlərimizi məhəbbət və özünəməxsus şirinliklə işlədir.

Azərbaycan teatrı ilə əvvəllər də işbirliyi olub. Lakin Yuğ teatrında ilk dəfə tamaşa qurur. Maraqlı məqamlardan biri odur ki, rejissor nə indiyə kimi Azərbaycan teatrında səhnələşdirilməyən əsərə müraciət edib, nə də öz ölkəsinin milli dramaturgiyasına. Rejissorun V.Şekspirin "III Riçard"ını seçməsi və onun əsasında "Lənət" tamaşası hazırlaması heç də təsadüfi deyil: "Çoxdan istəyirdim ki, Şekspirin üç faciəsini - "III Riçard", "Hamlet" və "Maqbet"i trilogiya kimi hazırlayım. İnşallah, bu istəyimi "Yuğ"da gerçəkləşdirə biləcəyəm.

Konkret olaraq "Lənət"ə gəlincə, illərdir Azərbaycan böyük ədalətsizlik, amansızlıqla üz-üzədir. Mənim ölkəmin əhalisi isə bu barədə az bilir. Qarabağ məsələsi, Xocalı soyqırımı haqqında düşünəndə ilk növbədə bunlar adama gərgin və mürəkkəb siyasi problem kimi görünür. Eləcə də digər ölkələrdəki, məsələn, Ukraynada, Suriyada baş verənləri götürək... Əslində, bütün bunların kökündə lənət durur. Lənətə gələn də insandır, lənətə bais olan da..."

Bolqar rejissorun bu məsələyə maraqlı və özünəməxsus yanaşması var: "Mənim üçün bu məsələ çox vacibdir: mən insanlardan soruşmaq istəyirəm ki, axı bunlar niyə baş verir? Nə üçün belə oldu? Mənim üçün komediya, yaxud faciəni səhnələşdirməyimin heç fərqi yoxdur. Tamaşaçıya öz quruluşumla məni düşündürən sualı verirəm. Məncə, yaxşı rejissor sual qoymağı bacarmalıdır".

Haqlı və doğrudan da, düşündürücü sualdır: niyə insanlar lənətdən bu qədər asılıdır?

Yuğ teatrını seçməsinin səbəbinə gəlincə, əcnəbi rejissor burada da maraqlı fikir söyləyib: "Bilirsiniz, əcnəbi rejissorla işləmək sənə hər mətləbi öz dilində başa salan, səninlə eyni mədəni mühitdə yetişmiş rejissorla işləməkdən çətindir. Digər tərəfdən, assosiativ teatr onların alışdığı ifa tərzindən bir qədər fərqlidir. Əslində, bu fərqlilik aktyor üçün maraqlıdır. Mən onları çox sevirəm və birgə çalışmaqdan zövq alıram".

Xristo Stoyçev Sofiyada fəaliyyət göstərən "Göz yaşı və gülüş" teatrında çalışır. Dünyada tanınan aktyor, rejissor Velyo Qoranov da bu teatrdadır.

Rejissor xalqlarımız arasındakı mədəni əlaqələrə toxunarkən qeyd etməyi unutmayıb ki, bolqarların Azərbaycan musiqisi, muğamları barədə bir qədər məlumatları var: "Elə buna görə də düşünürəm ki, Yuğ teatrının direktoru, mənim köhnə dostum İslam Həsənovla bizim teatrlar arasında qurduğumuz bu əlaqə həm də ölkələrimizin mədəni əməkdaşlığına təkan verəcək. Mən bu dəvətə görə Azərbaycanın Bolqarıstandakı səfirliyinə, Mədəniyyət Nazirliyinə minnətdaram".

İllər öncə, o, Lənkəran teatrında tamaşa qurub. Deyir ki, Akademik Milli Dram Teatrı Bolqarıstanın İvan Vazov adına Milli Teatrı ilə yaradıcılıq ünsiyyətinə başlayıb. 2017-ci ildə Akademik Milli Dram Teatrının hazırladığı "İuda" mono-tamaşası isə Varna festivalında mükafat qazanmışdı. Azərbaycanda da beynəlxalq teatr festivalları keçirilir.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

● Festival

# Marionet Teatrı Fransada beynəlxalq festivala qatılacaq

**Sentyabr ayında Fransanın Şarlövil-Mezyer şəhərində XX Beynəlxalq Marionet Teatrları Festivalı keçiriləcək. Festivalda ölkəmizi Bakı Marionet Teatrı təmsil edəcək. Teatr beynəlxalq festivala "Leyli və Məcnun" tamaşası ilə qatılacaq.**

Teatrın əsası rejissor və rəssam Tərlan Qorçu tərəfindən 1980-ci illərdə qoyulub. Teatr hazırda "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin nəzdində, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın dəstəyi ilə ayrılmış tarixi binada fəaliyyət göstərir. Teatrın repertuarına Azərbaycan klassik musiqisinin banisi, dramaturq, folklorçu və maarifçi Üzeyir Hacıbəylinin əsərləri daxildir.

1961-ci ildə əsası qoyulmuş Şarlövil-Mezyer Beynəlxalq Marionet Teatrları Festivalında 30-dan çox ölkənin truppaları tamaşalar təqdim edir. Festival 2009-cu ildən etibarən 2 ildən bir keçirilir.

● Xəbərlər

# Yubilyar şəhərin yaşıdı kitabxana

**70 yaşlı Sumqayıt heç də təsadüfi yerə gənclər şəhəri adlandırılmayıb. Xəzərin laylasına "yatıb-oyanan" dalğalar, xəzrilərilə sumqayıtlıların könlünə sərinlik gətirən Sumqayıt həm də gözəl istirahət məkanıdır.**

Burada mədəni mühitin formalaşması və zənginliyi üçün çoxsaylı layihələr həyata keçirilib. Sumqayıt Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin də yaşı az deyil. Sumqayıtlılara mədəni xidmətləri ilə sevilən kitabxanaçılar nəsil-nəsil dəyişsə də, ənənə davam etdirilir. 1966-cı ildə Mərkəzi Kitabxanaya



Xalq şairi Səməd Vurğunun adı verilib. Bu mədəni xidmət müəssisəsi 1968-ci ildə hazırda fəaliyyət göstərdiyi binaya köçürülüb.

Kitabxanada Xidmət, Komplektləşdirmə və kitabişləmə, Metodika və biblioqrafiya, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, Kitabxanalararası abonement, İnformasiya-resurs, İncəsənət, Dövri mətbuat, Uşaq, Elmi tədqiqat, Depozitar fond, Vahid fondun təşkili və istifadəsi şöbə və bölmələri fəaliyyət göstərir.

MKS-nın direktoru Yeganə Əhmədovanın sözlərinə görə, mərkəzi kitabxana tərəfindən Sumqayıtın 70 illik yubileyi ilə bağlı müxtəlif səpkili tədbirlər davam etdirilir.

Sumqayıtın 70 illiyi çərçivəsində Mərkəzi Uşaq Kitabxanasının əməkdaşları 71 nömrəli "Heyran" körpələr evi-uşaq bağçası ilə birgə "Təbrik edirəm mən yaşını" adlı səhərcik keçirib. Bundan başqa, N.Gəncəvi adına kitabxana-klubda şəhərin yubileyinə həsr olunmuş "Sumqayıt dünən, bu gün, sabah" adlı "dəyirmi masa" təşkil olunub.

# "O olmasın, bu olsun" Gəncədə nümayiş olunacaq

**Sentyabrın 25-də Gəncə Dövlət Filarmoniyasında Üzeyir bəy Hacıbəylinin "O olmasın, bu olsun" ikipərdəli musiqili komediyası nümayiş olunacaq.**

Səhnə əsərini Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının truppası təqdim edəcək. Operetta Üzeyir bəy Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalı çərçivəsində nümayiş etdiriləcək. Tamaşanın dirijoru Sevil Hacıyevadır.

# Dünyanın ən böyük xalısı Təbrizdədir

**Təbriz şəhərində Beynəlxalq xalça sərgisi keçirilib. 10 illik fasilədən sonra təşkil edilən, iyulun 31-dən avqustun 4-dək davam edən sərgi bu dəfə müxtəlif ölkələrdən xalça ustalarını, mütəxəssisləri, xalça nümunələrini bir araya gətirməklə yanaşı, əlamətdar bir hadisə ilə də yadda qalıb.**



İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Təbriz Beynəlxalq Xalça Sərgisinin açılışında dünyanın ən böyük əldə toxuma xalısını təqdim edib. Təbrizli ustaların ərsəyə gətirdikləri xalçanın ölçüsü 600 kvadratmetr, çəkisi 3 tondur. Bu nadir sənət nümunəsində 700 rəngdən istifadə edilib və toxunması altı il davam edib.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı Protez-Ortopedik Bərpa Mərkəzinin avadanlıqlarla təchizatının satın alınması üzrə keçirilən

### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https//:www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 1000,0 (bir min) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**VÖEN: 401555071**
**SWIFT CTREAZ22**
**H/H: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **19.09.2019-cu il saat 17:00-a qədər** və tender təklifi ilə bank təminatı sənədlərini **25.09.2019-cu il saat 15:00-a qədər** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **25.09.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərlotereya" ASC lotereya həvəskarları üçün maraqlı tirajlar təşkil edir

"Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 23 noyabr tarixli 599 nömrəli fərmanına əsasən yaradılmışdır. Cəmiyyətin təsisçisi Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyidir və əsas vəzifəsi bütün növ lotereyaların (malların satışı və (və ya) xidmətlərin göstərilməsi ilə müşayiət olunan lotereyalar istisna olmaqla) buraxılması, təşkili və keçirilməsi fəaliyyətindən ibarətdir. Azərbaycan Respublikasında lotereyalar əhalinin sosial-maddi rifahının yüksəldilməsi və dövlət əhəmiyyətli layihələrin maliyyələşdirilməsi, dövlət büdcəsinə daxilolmaların artırılması, malların (işlərin, xidmətlərin) satışını stimullaşdırmaq məqsədilə keçirilir.

"Azərlotereya" ASC-nin təşkil etdiyi lotereyalar geniş əhali kütləsi arasında marağa səbəb olmuşdur. Hazırda "Azərlotereya" ASC "Yeni Binqo", "Klassik loto", "4+4" tirajlı həftəlik lotereyaların, gündəlik "5/36" və "6/40" tirajlı lotereyaların və "Binqo+8", "Bahar Sevincləri", "Super Binqo", "Qış Möcüzəsi", "Yeni il Sevincləri" bayram lotereyalarının keçirilməsini təşkil edir. Bundan əlavə "Futbol 4", "Qoşa Şans 4", "Super 5+", "Şans++ 2", "Sehirli Meyvə 2", "Uğurlu rəqəm 13", "777", "Şeş qoşa 2" və "Şahmat" ani lotereyalarının satışını həyata keçirir. Lotereya biletlərini cəmiyyətin rəsmi satış distribüterləri olan - "Loto Yayım", "CaspianTech" (keçmiş Topaz) şirkətlərinin satış məntəqələrində əldə etmək mümkündür. "Mobil Lotto" şirkəti isə lotereya biletlərinin satışını **www.azerlotereya.com** rəsmi veb-saytı vasitəsilə həyata keçirir.

AZƏRLOTEREYA

"Azərlotereya" ASC təşkil etdiyi tirajlı lotereya oyunlarının satışını artırmaq və lotereya iştirakçılarının lotereya biletlərini daha asan əldə etmək məqsədilə satış məntəqələrində lotereya biletlərinin terminallar vasitəsi ilə (xüsusi proqram təminatı əsasında) satışını təşkil etmişdir ki, bu da oyun iştirakçılarını öz oyun kombinasiyalarını şifahi və ya pulsuz paylanılan xüsusi blanklarda qeyd etməklə lotereya iştirakçısına çevirir.

Eyni zamanda mobil tətbiq vasitəsilə internet üzərindən biletlərin alınması və oyun kombinasiyalarını qeyd etməklə əldə etmək mümkündür. Hər yenilik və əlavələr haqqında **www.azerlotereya.com** internet saytında əhaliyə əvvəlcədən məlumat verilir. Oyunun nəticələri haqqında məlumat "Azərlotereya" ASC-nin rəsmi internet saytından və "Lotto media yayım" qəzetində yerləşdirilir. Biletlərin yoxlanılması da **www.azerlotereya.com** internet saytında mümkündür.

İndiyə qədər minlərlə insan "Azərlotereya"nın təşkil etdiyi lotereya oyunlarının qalibi adını qazanmışdır.

Lotereya biletlərini Siz də əldə edin və müxtəlif pul uduşlarının sahibi olun!

**Sizin "Azərlotereya"**

## Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi 225411. "İnventarın alınması" xərc maddəsi üzrə malların satın alınması məqsədilə

### *açıq tender elan edir*

**LOT-1.** 225411. "İnventarın alınması" xərc maddəsi üzrə malların satın alınması;

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 200 (iki yüz) manat məbləğdə heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Portal vasitəsi ilə əldə edə bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son iki ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son iki ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə məlumat;*
- *son üç ildə yerinə yetirilmiş analoji işlər barədə ətraflı məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinə Portal vasitəsilə ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **16.09.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **24.09.2019-cu il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **25.09.2019-cu il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 12.05.2019-cu il tarixdə elan edilmiş xətt şəbəkəsində plan profilaktik işlərin aparılmasında tələb olunan mal-materialların satın alınması prosedurunun qalibi "AB-DƏMİR BETON" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "AB-DƏMİR BETON" MMC arasında 20 avqust 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 05.06.2019-cu il tarixdə elan edilmiş istismar işləri üçün tələb olunan materialların satın alınması üzrə keçirilməsi nəzərdə tutulan tender iddiaçıların tender təkliflərini təqdim etməmələri səbəbilə ləğv edilmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən açıq tender metodu ilə **LOT 1** - Quba rayonunda Uşaq Bərpa Mərkəzi, **LOT 2** - Masallı rayonunda Uşaq Bərpa Mərkəzi, **LOT 3** - Ağcabədi rayonunda Uşaq Bərpa Mərkəzi, **LOT 4** - Bakı şəhərində İnsan alveri qurbanlarına yardım mərkəzi və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzi, **LOT 5** - Gəncə şəhərində İnsan alveri qurbanlarına yardım mərkəzi və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzi, **LOT 6** - Quba rayonunda İnsan alveri qurbanlarına yardım mərkəzi və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzi, **LOT 7** - İsmayıllı rayonunda Yetkinlik yaşına çatmayan kimsəsiz uşaqlar üçün 25 yerlik sosial sığınacaq və 30 yerlik ixtisaslaşdırılmış reabilitasiya mərkəzi, **LOT 8** - Quba rayonunda Yetkinlik yaşına çatmayan kimsəsiz uşaqlar üçün 25 yerlik sosial sığınacaq və 30 yerlik ixtisaslaşdırılmış reabilitasiya mərkəzi, **LOT 9** - Bakı şəhərində Xəzər rayonunun sahilində Əlilliyi olan uşaqlar üçün sanator-kurort profilli bərpa-müalicə mərkəzi, **LOT 10** - Lənkəran şəhərində Əlilliyi olan uşaqlar üçün sanator-kurort profilli bərpa-müalicə mərkəzi və **LOT 11** - Xaçmaz rayonu, Nabran qəsəbəsində Əlilliyi olan uşaqlar üçün sanator-kurort profilli bərpa-müalicə mərkəzinin layihələndirilməsi işlərininsatın alınması ilə əlaqədar satınalma müsabiqəsinin qalibi "Vivatech Project &Consulting" MMC olmuşdur və 16 avqust 2019-cu il tarixində satınalma müqavilələri bağlanılmışdır.

***Tender komissiyası***

## Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi 225413. "Digər alışlar və xidmətlər" xərc maddəsi üzrə malların (xidmətlərin) satın alınması məqsədilə

### *açıq tender elan edir*

**LOT-1.** 225413. "Digər alışlar və xidmətlər" xərc maddəsi üzrə malların satın alınması;

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 200 (iki yüz) manat məbləğdə heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son iki ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son iki ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə məlumat;*
- *son üç ildə yerinə yetirilmiş analoji işlər barədə ətraflı məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinə Portal vasitəsilə ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **16.09.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **24.09.2019-cu il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **25.09.2019-cu il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Sloveniya Xorvatiya ilə sərhəddə yeni divar inşa edir

Sloveniya Xorvatiya ilə sərhədinin cənubu boyunca əlavə divar inşa etməyə başlamışdır. "Röyter" agentliyinin xəbərinə görə, Sloveniya hökuməti bu divarın köməyi ilə qanunsuz olaraq ölkə ərazisinə daxil olan qaçqınların sayını azaltmaq niyyətindədir. Sloveniya polisi cari ilin ilk yeddi ayında 7415 qeyri-leqal miqrant qeydə almışdır. Bu, 2018-ci ilin eyni dövrü ilə müqayisədə 56 faiz çoxdur. Ötən ay Sloveniya hökuməti Serbiyanın "Legi-SGS" şirkəti ilə Xorvatiya sərhədində 40 kilometrlik divarın tikintisi barədə müqavilə imzalamışdır. Bu iş başa çatdıqdan sonra divarın ümumi uzunluğu 219 kilometrə çatacaq və Xorvatiya ilə sərhədin təxminən üçdə birini əhatə edəcək.

Sloveniya ilk dəfə sərhədyanı divar inşasına 2015-ci il miqrasiya böhranı zamanı başlamışdır. O vaxt yarım il ərzində ölkədən təqribən 500 min qeyri-leqal miqrant keçmişdi.

Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 26.08.2019-cu il tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.

## Şri-Lankada fövqəladə vəziyyət ləğv olundu

Şri-Lanka Prezidenti Maytripala Sirisena bu ilin aprelində ölkədə törədilmiş qanlı terror aktlarından sonra tətbiq olunmuş fövqəladə vəziyyət rejiminin müddətini növbəti dəfə uzatmamışdır. Bu barədə "Frans Press" agentliyi xəbər verir.

Şri-Lanka hakimiyyət orqanları terror aktlarından sonra aprelin 22-də ictimai asayişi təmin etmək üçün polis və silahlı qüvvələrə əlavə səlahiyyətlər vermək üçün fövqəladə vəziyyət elan etmişdi. Prezident əvvəllər fövqəladə vəziyyətin müddətini üç dəfə uzatmışdı.

Xatırladaq ki, aprelin 21-də Şri-Lankanın müxtəlif bölgələrində səkkiz partlayış törədilmiş, nəticədə 250 nəfərdən çox adam, o cümlədən 42 əcnəbi həlak olmuşdur. Hadisəyə görə məsuliyyəti İŞİD terrorçu qruplaşması üzərinə götürmüşdür.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Mingəçevir Dövlət Universitetinin rektorluğu və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mingəçevir Dövlət Universitetinin rektorluğu və kollektivi Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9004
Sifariş 2738
Qiyməti 40 qəpik